

**Dmitri Savelyev Delyagin barədə: "Sonrakı üzrxahlıq və izahatlar şəxsi fikirlərdir, vəziyyəti demək olar dəyişmir"**

2

№ 055 (6496) **1 aprel**
2022-ci il. **Qiyməti 60 qəpik**

## İlham Əliyev: "Bizə yarımçıq hansısa sülh müqaviləsi lazım deyil"

"Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir və bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşərək düşmənə...



3

# Dünyanın sonudurmu?

## Nüvə müharibəsi hər an ola bilər...



8

## Çavuşoğlu: "Azərbaycan Ermənistana əhatəli sülh razılaşması təklif edib"



9

Azərbaycan Ermənistana əhatəli sülh razılaşması təklif edib. SİA-nın məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "A Haber" telekanalına müsahibəsində deyib. O, Türkiyənin Ermənistanla normallaşma prosesində Ankaranın Bakı ilə məsləhətləşmədən...

## Məsut Özil "Fənərbaxça"dan gedəcək?



16

## Generallardan Putinə qarşı sui-qəsd!



## Sudan istifadə hansı halda ödənişsizdir?



## Məktəbli formaları necə olmalıdır?



6

Eyni məktəbli forması olan şagirdlər geyimlərini müqayisə etmir və dərsə daha çox maraq göstərə...

## Armen Badalyan: "Ermənistanın vilayətə çevrilməsi prosesinə başlanacaq"



9

"Əgər Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı uğursuzluğa düçar olarsa, onda Qarabağda lokal hərbi əməliyyatlar...

# İlham Əliyev və Vladimir Putin arasında telefon danışığı olub

***Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib. Telefon danışığı əsnasında Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət müzakirə olunub.***

Söhbət zamanı 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların bütün müddəalarının ardıcıl surətdə həyata keçirilməsinin vacibliyi vurğulanıb.



# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: "Azərbaycan xalqı günahsız soydaşlarımızın qətlə yetirildiyi faciələri heç zaman unutmayacaq! Biz o dəhşətli hadisələr haqqında həqiqətləri təhrif olunma cəhdlərindən hər zaman qoruyacağıq. 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törədilmiş soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".




# "İndi Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır"

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Prezident İlham Əliyev dünən Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev görüşdə çıxış edərək bildirib ki, indi Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır:**

"Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərində bizi daim dəstəklədiyinə görə Polşaya minnətdarıq. Bu proses indi sürətlə gedir və artıq Avropa İttifaqı tərəfindən elan edilmişdir ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaqdır. Ümid edirəm ki, bu görüş məhsuldar olacaq. Çünki artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib.

Münaqişə artıq öz həllini tapıb. Azərbaycan bunu özü etdi və indi də Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu, çox yaxşı xəbərdir və mən ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcək.

Bizim təqdim etdiyimiz beş prinsip beynəlxalq hüququn normalarını, yaxşı beynəlxalq davranışı əks etdirir. Necə deyərlər, biz burada velosiped ixtira etmirik. Bütün bu prinsiplər istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləridir. Qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, daha sonra sərhədlərin delimitasiyası - hesab edirəm ki, bunun əsasında Qafqaza sülh gələcəkdir. Biz bunu istəyirik. Biz Cənubi Qafqazın üç ölkəsi arasında Cənubi Qafqazda fəal əməkdaşlıq üçün potensialın olduğunu görürük və hesab edirəm ki, bu, nəinki bu ölkələr üçün, daha geniş region üçün önəmli olacaq. Əlbəttə ki, bütün bu məsələləri çox ehtiyatla və vaxtında həll etmək lazımdır. Çox şadam ki, bu və digər mühüm məsələləri sizinlə müzakirə etmək imkanımız var."

Dövlətimizin başçısı 1-ci Ermənistan-Azərbaycan müharibəsindən indiyədək 4 min soydaşımızın itkin düşdüyünü ATƏT-in fəaliyyətdə olan sədri kimi Zbiqnev Raunun diqqətinə çatdırıb.

Zbiqnev Rau Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşacağına ümidvar olduğunu bildirərək, qeyd edib ki, nizamlanmaya aparan indiki mərhələ çox nikbin görünür. ATƏT-in fəaliyyətdə olan sədri bu proseslərin Qafqaz regionu, eyni zamanda, Mərkəzi və Şərqi Avropa üçün də çox sevindirici olduğunu və bunun gələcək üçün yeni imkanlar yaratdığını bildirib.

Azərbaycanla Polşa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini deyən Zbiqnev Rau iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məqsədilə qarşıdan gələn aylarda hökumətlərarası komissiyanın iclasının keçiriləcəyini vurğulayıb. Zbiqnev Rau Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində Polşa şirkətlərinin də maraqlı olduğunu bildirdi.



# Dmitri Savelyev Delyagin barədə: "Sonrakı üzrxahlıq və izahatlar şəxsi fikirlərdir, vəziyyəti demək olar dəyişmir"

Bəzi rəsmilər ictimaiyyət qarşısında çıxış edərkən heç də həmişə söylədiklərinin mənasını dərk etmirlər. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyev deputat Delyaginin Azərbaycan barədə ifadələrini şərh edərkən bildirib.

"Dövlət Dumasının deputatı Delyaginin dövlət kanalının efirində söylənilən emosional ifadələrilə bağlı vəziyyət təəssüf olsun ki, bizi bir daha bəzi rəsmilərin ictimaiyyət qarşısında çıxış edərkən heç də həmişə söylədiklərinin mənasını dərk etməməsi probleminə qaytarır. İstənilən emosiyalar və şəxsi üstünlüklər şəxsi olaraq qalmalıdır. Çünki geniş auditoriya üçün rəsminin istənilən açıqlaması bu şəxsin təmsil etdiyi hakimiyyətin mövqeyi kimi görünür", - deyə D.Savelyev vurğulayıb.

Sonrakı üzrxahlığın və izahatların şəxsi fikirlər olduğu, vəziyyəti demək olar dəyişmədiyini vurğulayan rusiyalı deputat bildirib: "Cəmiyyətimizin sabitliyə və zəmanətə əhəmiyyətli dərəcədə ehtiyacı olduğu indiki dövrdə bu, xüsusilə təhlükəlidir. Bu vəziyyət Azərbaycanla əldə olunan razılaşmalar baxımından da çox pis görünür. Xatırladım ki, fevral ayında Rusiya və Azərbaycan prezidentləri müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalayıblar. Həmin Bəyannamənin birinci bəndində deyilir ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmət və bir-birilərinin daxili işlərinə müdaxilə edilməməsi, eləcə də mübahisələrin sülh yolu ilə həll olunması əsasında qurulur".

# İlham Əliyev:
# "Bizə yarımçıq hansısa sülh müqaviləsi lazım deyil"

"Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir və bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr vurub, öz tarixi torpaqlarını işğalçılardan azad edib. Biz bu tarixi missiyanı yerinə yetirdik". Prezident İlham Əliyev bu fikirləri çıxışlarında dəfələrlə vurğulayıb və bildirib ki, istər müharibə, istər keçmiş Qarabağ münaqişəsinin həlli, istərsə də gələcəklə bağlı siyasətimiz tam aydındır: "Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Halbuki, biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər". Dövlət başçısı onu da vurğulayıb ki, heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın: "Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müxtəlif çıxışlarda, müsahibələrdə müharibədən əvvəl deyirdim ki, bizə yarımçıq hansısa sülh müqaviləsi lazım deyil". Ancaq bu gün Ermənistan sülhə əngəl olmaq üçün əsassız bəyanatlarından, təxribatlarından əl çəkmir.

## Erməni canfəşanlığının pərdəarxası məqamları

Belə ki, bu ölkənin Xarici İşlər Nazirliyi 24 mart tarixində guya bölgədə vəziyyətin gərginləşməsi ilə bağlı Azərbaycana qarşı ittihamları əks etdirən bəyanat yayması bir daha bu işğalçı ölkənin riyakar olduğunu sübut edir. Bəyanatda erməni tərəfi iddia edir ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində guya PUA-lardan istifadə edilir, silahlı toqquşma baş verir. Hətta hərbi qulluqçularımızın həlak olması barədə Ermənistan tərəfi məlumat da yayıb. Onların əsassız bəyanatında guya Azərbaycanın bölgədə vəziyyəti gərginləşdirdiyi ilə bağlı ittihamlar yer alıb. Sözsüz ki, bu erməni mənbələri tərəfindən uydurulmuş və heç bir əsası olmayan fikirlərdir. Məqsəd vəziyyəti süni şəkildə şişirtmək və gərginlik yaratmaqla öz havadarlarının diqqətini bölgəyə çəkmək niyyətidir.

Belə ki, ötən ilin dekabrında Şərq Tərəfdaşlığı Sammitində Azərbaycan, Ermənistan və Gürcüstan rəhbərləri NATO-ya dəvət olunmuşdular. Prezident İlham Əliyev dəvəti qəbul etdi. NATO Baş katibi Stoltenberq ilə görüşdü. NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasında çıxış etdi. 2 saatdan artıq çəkən iclasda NATO-nun 30 üzv dövlətinin 20-dən artıq daimi nümayəndələri çıxış edərək Azərbaycanın rolunu və yürütdüyü siyasətini, Əfqanıstan əməliyyatında iştirakını yüksək qiymətləndirdilər, xoş fikirlər söylədilər.

Ancaq Rusiyanın qorxusundan vassal və müstəmləkə dövlətin rəhbəri olan Paşinyan NATO-ya səfər etməkdən boyun qaçırdı. İndi Rusiyanın Ukraynada üzləşdiyi çətinlikləri və hərbi qələbə əldə edə bilməməsini görərək Paşinyan və onun ikiüzlü komandası NATO-ya və qərb ölkələrinə meyil edir. Bu vasitə ilə Gürcüstana yaxınlaşmağa və ya Gürcüstanla yaxınlaşma fonu yaratmağa çalışır. Həmin vaxtda Paşinyan NATO-nun toplantısında iştiraka yox deyəndə Rusiya güclü idi. İndi isə Rusiyanın zəifləndiyini görən Paşinyan batmaqda olan gəmini tez tərk edən siçovullara bənzəyir. Budur Paşinyanın saxtakar komandasının həqiqi mahiyyəti. Sözsüz ki, Ermənistanın daim ikili oyun oynadığını qərbdə də, Rusiyada da yaxşı bilirlər. Və bütün bunlar bir daha Ermənistanın siyasi riyakarlıq edərək sülh yaratma prosesinə əngəl törətməsini sübut etməklə yanaşı, həm də 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatda nəzərdə tutulan müddəaların icrasını yerinə yetirmir. Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməklə Azərbaycan ərazisində qalmış qanunsuz silahlılarını bölgədən çıxarmalıdır. Çünki beynəlxalq hüquq və prinsiplər əsasında münasibətlərin normallaşması bölgədə sülhün, sabitliyin təmin edilməsinin yeganə yoludur. Təsadüfi deyil ki, martın 25-də Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyqunun təşəbbüsü ilə onun Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə telefon danışığı olub. Tərəflər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki mövcud vəziyyəti, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər. Bu fakt belə özlüyündə rəsmi Bakının prosesi hərbi və siyasi qaydalara uyğun apardığını sübut edir.

Həmçinin, son günlər sosial şəbəkələrdə Xocalının Fərrux və Pirlər kəndi ilə bağlı informasiyalara gəldikdə isə, bu ərazilər Ağdamın təhlükəsizliyi baxımından vacib nöqtələrdir. Bu ərazilərdə nəzarətin Azərbaycan silahlı qüvvələrinə keçməsi ilk Ağdamın təhlükəsizliyinin tam təmin edilməsi deməkdir. Həmçinin, bu kənd özülüyündə böyük mənəvi və psixoloji məna daşıyır. Belə ki, ermənilərin "yazarı", əslində isə, uşaq qatili Zori Balayan Birinci Qarabağ müharibəsi gedişində Fərruxu Qarabağın "qızıl açarı" adlandırırdı. Təsadüfi deyil ki, ermənilər bura çoxlu muzdlu qüvvə yerləşdirmiş, işğalı sürətləndirmişdi. Birinci Qarabağ müharibəsində Fərrux kəndi uğrunda Azərbaycan silahlı qüvvələri xeyli şəhid verib. Və bu gün Fərruxda kütləvi məzarlıqların olması da deyilənləri sübut edir. Belə olan halda ermənilərin bu gün canfəşanlığının bir səbəbi də məhz budur. Ermənilər bundan öncə Xocavənd rayonunun Edilli kəndində aşkar edilən kütləvi məzarlıq kimi Fərruxda da kütləvi məzarlığın aşkarlanmasından qorxur.

## Azərbaycanın haqlı tələbi: belə davam etsə...

Ermənistanın vaxtaşırı olaraq Azərbaycanın daxili işlərinə qarışacaq bəyanatlar verməsi isə artıq "praktikaya" çevrilib. Və Ermənistan Azərbaycanın haqlı tələbini qəbul etməlidir. Belə davam edərsə, o zaman Azərbaycan Ermənistanın növbəti təxribatına Azərbaycan layiqli cavabını verib və bundan sonra da verəcək. Çünki Azərbaycanın Ermənistan ərazisinin bir santimetrinə də iddiası yoxdur. Ermənistan müharibənin bitməsinin ikinci ilinin yaxınlaşmasına baxmayaraq, hələ də Azərbaycanın ərazi bütövlüyünü tanımır. Sərhədlərin dəqiqləşməsi ilə bağlı danışıqlara getməkdən çəkinir. Ümumiyyətlə isə, Ermənistan hələ də 44 günlük müharibədən hiss edilir ki, yaxşı nəticə çıxarmayıb.

Və bu gün 10 noyabr 2020-ci il Bəyanatına uyğun olaraq Azərbaycan öz üzərinə düşən öhdəlikləri doğru və düzgün icra edir. Dövlətimizin hər zamankı kimi sözü və əməli birdir. Ermənistan tərəfi isə yalanı və riyakarlığı özü üçün milli "strategiyaya" çevirib. Öz "siyasətini" böhtanlar üzərində quran Ermənistan hələ də razılaşmaları icrasından yayınır. Eyni zamanda, bu ölkə razılaşmaların icra vəziyyətini təmin etməmək üçün təxribatlara əl atır. Çünki Ermənistanda hələ də "böyük Ermənistan" xülyası ilə yaşayanlar var. Doğrudur, bu günlərdə Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edib. Amma bundan sonra da qarşı tərəfdən təxribatlara yol verilib. Amma erməni tərəfi yenə də unutmamalıdır ki, o ərazilər Azərbaycana məxsusdur. Sülhməramlıların arxasında gizlənən erməni terrorçuları qısa zamanda ərazini tərk etməlidir. Əks halda onların bu ərazilərdən sağ çıxması mümkün olmayacaq. Qarşı tərəf Azərbaycan Ordusunun gücünə bələddir. Erməni tərəfi Azərbaycanın növbəti hücum əmrindən ehtiyyat etməlidir.

Bir sözlə, Ermənistanın yeganə çıxış yolu sülh müqaviləsini imzalamaqdır. Ayrı yolları da yoxdur. Çünki nə vaxtsa baş qaldırsalar, başları üzərində "Dəmir yumruğ"u görəcəklər. Vəziyyətdən çıxış yolu yalnız sülh sazişini imzalamaq və təxribatlara son qoymaqdır.

## Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır

Qeyd edək ki, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev diktə edən tərəf olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir və Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün



açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir. Paşinyan başa düşməlidir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. Və 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

Qərb dövlətləri, bütün dünya bunun fərqində olmalıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev demişdir: "Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir. İkinci Qarabağ müharibəsindən əvvəl onlar deyirdilər və onların baş naziri açıq şəkildə bildirmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu bəyanat, əslində, danışıqlar prosesini məhv etdi və onların keçən il yaşadığı acı məğlubiyyətin elementlərindən biri idi. Lakin indi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur".

Göründüyü kimi, Ermənistan hökumətinin yeritdiyi siyasət səhv və yanlışdır. Azərbaycan düz və ədalətli yoldadır. Xalqımızın məsəli var: düzə zaval yoxdur. Onlar, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla sülh razılaşması olmazsa, gələcəkdə bunun bədəlini ödəməli olacaqlar.

Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olub. Və bu gün Ukrayna ilə Rusiya arasında baş vermiş müharibəyə dünya dövlətlərinin və beynəlxalq təşkilatların münasibətlərini izlədikdə bir daha əmin olursan ki, ikili standartlar hələ də hökm sürməkdədir. Baş verən hadisələr bir daha onu sübut edir ki, Rusiya-Ukrayna münaqişəsində problemin sülh və danışıqlar yolu ilə həll olunmasında dünya o qədər də səbr və təmkin nümayiş etdirmədi. Lakin Azərbaycanın mövqeyi ondan ibarətdir ki, münaqişə sülh yolu ilə və danışıqlar masasında həll olunmalıdır. Azərbaycan hər zaman çətin vəziyyətə düşmüş ölkələrə öz humanitar yardımını əsirgəməmişdir. Bu dəfə də müharibədə yaralanmış Ukrayna vətəndaşlarının müalicəsi üçün bu ölkəyə külli miqdarda humanitar yardım göndərdi. Bu dövlətimizin hər zaman dinindən, dilindən asılı olmayaraq bəşəriyyətə və insanlara verdiyi böyük dəyərdir. Və bu gün Azərbaycanın haqlı tələbi: belə davam etsə...Yəni ermənilər sülh, sabitlik, əmin-amanlıq və inkişaf istəyirlərsə, onda Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Əks-təqdirdə onlar üçün sülh də olmayacaq, sabitlik də, əmin-amanlıq da. Üstəlik, iqtisadi böhrandan heç zaman xilas ola bilməyəcəklər. Biz həm Birinci, həm də İkinci Qarabağ müharibələrində şəhid olmuş, itkin düşmüş, ömürlük əlilə çevrilmiş soydaşlarımızın qanının yerdə qalmaması üçün bütöv və qüdrətli Azərbaycan dövləti yaratmalıyıq və yaradırıq. Əgər kimsə bu prosesə mane olmaq istəsə, onda başı üstündə "dəmir yumruğu" görəcək. Bu baxımdan, ermənilərin revanşist fikirləri, sadəcə, xəyal olaraq qalacaq. Ermənistan təkcə döyüş meydanında deyil, bütün istiqamətlərdə məğlub oldu. Ermənistanın yeganə çıxış yolu Azərbaycanın sülh çağırışlarına müsbət cavab verməkdir. Əks halda, Ermənistanın mövcudluğu sual altında qalacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

# Rusiya-Ukrayna qarşıdurması probleminin həllində Azərbaycan-Türkiyə faktoru



**Artıq bəlli bir müddətdir ki, Rusiya ilə Ukrayna arasında yaranan qarşıdurma, müharibə bütün dünyanın diqqət mərkəzindədir. Hətta dünya dövlətlərinin qarışacağı təqdirdə bu qarşıdurmanın üçüncü dünya müharibəsinə çevrilmə təhlükəsi də mövcuddur və iki Slavyan ölkəsi arasında gedən müharibənin hamının diqqət mərkəzində olması da məhz bu səbəbdəndir. Narahatçılıqlar da anlaşılandır və bu baxımdan müharibənin mümkün qədər tez başa çatması hər kəsin maraq dairəsindədir.**

Təbii ki, dünya ölkələri bu müharibənin qarşısının alınması üçün bütün səylərini ortaya qoymaqdadırlar, amma etiraf olunur ki, bu məsələdə Türkiyə daha öndədir və hətta tərəflər arasında razılığa gəlinməsi, sülh danışıqlarının əldə edilməsində Türkiyənin təsirinin daha çox olduğunu hər kəs qəbul edir, bunun da bir çox səbəbləri var.

Qeyd edildiyi kimi, dünya dövlətləri Rusiya və Ukrayna arasında gözlənilən müharibəyə qarşı idilər və hələ müharibə başlamamışdan öncədən bir çox Avropa dövlətləri məsələyə müdaxilə etmək, müharibənin qarşısını almaq üçün çox əl-ayağa düşmüşdülər. Məsələn, Almaniya və Fransa bu baxımdan daha çox səylər göstərirdi. Təbii ki, nəticənin necə olması başqa məsələdir və müzakirə mövzusu da deyil, amma bir fakt göz önündədir ki, Avropa dövlətləri bunun öhdəsindən gələ bilmədilər. O da bir faktdır ki, artıq Avropa ölkələri bu məsələnin öhdəsindən yalnız Türkiyənin gələ biləcəyini qəbul və etiraf edirlər. Əks halda bütün Avropanın, eləcə də dünyanın gözü Türkiyədə olmazdı və qarşı-qarşıya gələn tərəfləri bir-biri ilə barışdırmaq məqsədi ilə danışıqlar üçün Türkiyənin seçilməsini dəstəkləməzdilər və bu da əbəs yerə deyil.

Türkiyənin bu məsələdə daha öndə olmasının bir çox səbəbləri var. Əvvəla, istər Rusiya, istərsə də Ukrayna bütün dünya dövlətlərindən daha çox Türkiyəyə inanır. Çünki, Türkiyə hər zaman ədalətli mövqe sərgiləyib və ələlxüsus mövqeyi hər zaman dəyişməz olub. Yəni, Fransa kimi hansısa Avropa dövlətinin timsalında mövqe fəyişkənliyi Türkiyə üçün qəbuledilməzdir və xarakterik deyil. Üstəlik, Türkiyə lideri cənab Ərdoğanın qətiyyətli və dəyişməz mövqeyi də hər kəsə tanışdır və bunu prezident Putin də dəfələrlə etiraf edib. Digər tərəfdən isə, Rusiyaya qarşı sanksiyalarla çıxış edən Qərbin sülh yaratmaq missiyası Rusiya, eləcə də onun lideri Putin üçün qəbuledilməz hesab oluna və bir növ onun boyun əyməsi, ən azından geri çəkilməsi sayıla bilər. Əksinə, Türkiyə ilə yaxınlıq, Türkiyənin məsələyə müdaxilə etməsi ruslar üçün həm qəbuledilləndir, həm də böyük bir üstünlükdür. Qəbuledilləndir ona görə ki, Rusiyaya qarşı sanksiyanı Türkiyə deyil, Qərb verib və danışıqları Türkiyənin aparması ruslar üçün əksiklik gətirə bilməz. Digər tərəfdən də Türkiyənin vasitəçiliyini qəbul edən Rusiya bununla dünyaya mesaj verir ki, heç də təklənmiş ölkə deyil və onun yanında Türkiyə kimi qüdrətli bir dövlət var.

Bu qarşıdurmada qaranlıq məqamlar az deyil. Məsələn, baxmayaraq ki, müharibənin olacağı ruslar tərəfindən təkzib edilirdi, baxmayaraq ki, ölkənin hakimiyyət mənsubları bir-birinin ardınca müharibə etmək niyyətlərinin olmadığını bəyan edirdilər, Rusiyanın Ukraynaya hərbi müdaxiləsi baş tutdu. Məsələnin nə qədər təhlükəli olduğu, xüsusən üçüncü dünya müharibəsinin başlanması baxımından təhlükəliliyi səbəbindən bu qarşıdurma daha çox narahatçılıq da doğurur. Əlbəttə ki, insan tələfatı, mülki vətəndaşların və hərbçilərin tələf olması, şəhərlərin dağıdılması, viran qoyulması arzuolunmaz və narahatlıq doğuran hallardır və bütün müharibələr bu baxımdan qətiyyətlə pislənilir. Məsələ burasındadır ki, bu Rusiya ilə Ukrayna arasında olan bu müharibə daha böyük təhlükələr vəd edir, çünki bu qarşıdurma şişərək üçüncü dünya müharibəsinə çevrilə bilər və bu da artıq ümumbəşəri problem deməkdir.

Sözsüz ki, bu zamanda, məhz XXI əsrdə, özü də bütün dünyanın gözü önündə Rusiya ordusunun başqa bir müstəqil ölkənin torpaqlarına soxulması qəbuledilməzdir. Ukrayna tərəfi də elə bu məsələnin qəbuledilməz olduğunu bəyan etməkdədir və öz müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumaqda haqlı olduqlarını bütün dünyaya, eləcə də Rusiyaya bildirir. Qəbuledilməz həm də odur ki, Ukraynanın şəhərlərinin əksəriyyəti Rusiya tərəfindən, rusların bombaları ilə darmadağın edilib və hələ də edilməkdədir. Bir çox Ukrayna şəhərləri yerlə yeksan olub. Evlərini tərk edə bilən, sağ qalan, sığınacaqda yerləşən mülki insanlar geri qayıtdıqlarında öz evlərini, mənzillərini onsuz da tapa bilməyəcəklər. Bu böyük faciədir. Məhz bunun qarşısı alınmalıdır və bu baxımdan hər kəsin Rusiya liderinə qarşı sərgilədiyi mövqeyi də başadüşüləndir. Ən dəhşətlisi isə odur ki, eyni tarixi köklərə, mədəniyyət kodlarına sahib olan iki Slavyan ölkəsi bir-biriylə amansız müharibəyə girişib, xüsusiylə günahsız ukraynalıların yurd-yuvaları bombardıman edilir, onlar öz torpaqlarını müdafiə edərkən həlak olurlar. Məhz bu dəhşətin mümkün qədər tez bitməsi, başa çatması üçün Türkiyə və Azərbaycan prezidentləri iki Slavyan ölkəsinin aralarındakı problemi diplomatik danışıqlar yoluyla həll etmek niyyətini lap əvvəldən ortaya qoyub. İki qardaş ölkə son ana qədər vasitəçilik təşəbbüsündən vaz keçməyiblər. Lakin məsələnin daha böyük geosiyası yönlərinin, aktyorlarının olduğu da açıq-aşkar göz önündədir.

Tarixi keçmişi və mövcud etno-demoqrafik reallıqları imkan verirdi ki, Ukrayna Qərblə Rusiya arasında körpü rolunu oynaya bilsin. Məsələ burasındadır ki, Ukrayna bu iki qarşı-qarşıya duran qütb arasında cəbhə, müharibə meydanına çevrildi. Kiyevdə hakimiyyət başına gələn iqtidarların Qərb meyilli olması, Rusiya əleyhdarı olaraq qatı bir siyasət aparması bu müharibə vəziyyətini ortaya çıxardı. Şübhəsiz ki, cərəyan edən proseslər dünya sisteminin gələcəyini müəyyənləşdirəcəyi kimi, Türkiyə və Azərbaycanın Qara dəniz hövzəsindən Orta Asiyaya qədər uzanan geniş coğrafiyalardakı maraqlarına da təsirsiz ötüşməyə bilməz. Bu baxımdan Azərbaycan-Türkiyə birliyi, müttəfiqliyi həm milli maraqlardan, həm də sülh yaratmaq, haqqı, ədaləti, beynəlxalq hüququ bərpa etmək mövqeyindən çıxış edərək Ukraynanın ərazi bütövlüyünə birmənalı dəstək verib işğal təşəbbüsünə belə qarşısı oldu. Eyni zamanda bu iki qardaş ölkə, yəni Türkiyə və Azərbaycan Rusiya ilə münasibətlərdə daha balanslı bir siyasət aparmaqdadır. Turizmdən ticarətə qədər Türkiyənin həm Rusiya, həm də Ukrayna ilə çox geniş əməkdaşlığı, tərəfdaşlığı mövcuddur və bu mənada maraqlar var. Bu səbəblə prezident Ərdoğan nə Ukraynadan nə də Rusiyadan vaz keçməyin mümkün olmadığı qənaətindədir və barışdırıcı, balanslaşdırıcı bir siyasət aparması da anlaşılan, başadüşüləndir. Azərbaycanın isə 44 günlük Qarabağ müharibəsindən sonra müxtəlif hərbi-siyasi reallıqları nəzərə almaqla, Rusiya sülhməramlılarının müvəqqəti olaraq Qarabağın az sayılı erməni əhalisinin yaşadığı bölgələrinə yerləşməsinə icazə verdiyi də günün reallığıdır və rəsmi Bakının milli təhlükəsizliyinə qonşularının yarada biləcəyi potensiyal təhlükələr səbəbiylə Moskva ilə münasibətləri normal saxlaması da anlayışla qarşılanır və uyğun şərait yaranan kimi Xankəndindəki separatizm qalıqlarını məhv edib Rusiya sülhməramlılarını ölkələrinə qaytarılmalarının təmin edilməsi istəyi də bəllidir. Ümumiyyətlə Türkiyə-Azərbaycan ittifaqının bütün Avrasiyada Türkiyə-Rusiya uzlaşması təmin edərək, bir çoxu Moskvanın ənənəvi müstəmləkə siyasətindən qaynaqlanan ərazi münaqişələri, separatizm problemlərini həll edib ölkələrin ərazi bütövlüklərinə hörmət çərçivəsində regional əməkdaşlıq və sabitliyi davamlı duruma gətirmək istədiyi də açıq-aşkardır. Lakin coğrafi super güc olmasına rəğmən Rusiyanın azalmayan iştahı da, Qərbin Türk İslam aləminə yönəlik ikili standart siyasətini də nəzərə almaq gərəkir. Bu bir siyasi reallıqdır. İstiqlalın qorunması, ədalət və milli maraqların təmini üçün Türk Dünyası məhz özü yeni dünyanın güc mərkəzlərindən biri halına gəlmək niyyətindədit və müvəffəqiyyətləri də göz önündədir. Sürətlə dəyişən geosiyasi şərtlər daha dinamik bir siyasət həyata keçirilməsini, sözsüz ki, zəruri edir və Rusiyanın yeni imperyalist həmlələrinin qarşısının alınması, işğala qarşı tərəqqipərvər bəşəriyyətlə birlikdə olmaq da məsələnin başqa bir nəzərəçarpacaq vacib məqamıdır.

Bilirik ki, artıq Rusiya demokratik dünya birliyinin total sanksiyaları altındadır. Bu ölkənin vəziyyəti heç də xoşagələn deyil. Ölkə daxilində sanksiyalar səbəbindən çox məhrumiyyətlər var və əhali bundan əziyyət çəkir. Yəni, təkcə Ukrayna əhalisi deyil, ruslar da bundan əvvəlki kimi rahat şəraitdə deyillər. Məhrumiyyətlər rusları çətin duruma salıb. Bu vəziyyətdə ölkə daxilində narazılıqlar, fiir ayrılıqları da yaranmağa başlayıb. Məhz ölkədəki sıxıntıların və narazılıqların fonunda Putinin əleyhidarları da artmaqdadır. Bir sözlə, Rusiya prezidenti heç də ürəkaçan mənzərə qarşısında deyil və çətinliklərin yarandığını yaxşıca dərk edir və hətta bundan ehtiyatlanır. O da sirr deyil ki, hər iki qarşı duran cəbhə üçün bütün parametrlər üzrə Türkiyə və Türk Dünyasının əhəmiyyəti daha da artıb və artmaqdadır. Çünki, tərəflər yaxşı başa düşürlər ki, onların bu qarşıdurması ikili standartlar siyasəti yürüdən Qərb, Avropa tərəfindən deyil, yalnız ədalətli ölkə olan Türkiyə tərəfindən dayandırıla bilər. Yaxşı başa düşürlər ki, Türkiyə daha sivil və ədalətli vasitəçi olaraq çıxış edə bilər. Anlayırlar ki, Rusiya-Ukrayna müharibəsinin dayandırılmasında, sülh danışıqları üçün səylərin artırılmasında, qarşıdurma probleminin həllində Azərbaycan-Türkiyə faktoru danılmazdır. Xüsusilə, dünyada söz sahibinə çevrilən, nüfuzu günü-gündən artan Türk Dünyasının birliyi, gücü ilə hesablaşmağın zamanı olduğu qəbul edilir və hər iki qardaş ölkənin bu müharibənin sülhlə başa çatmasına töhfə verəcəyinə inam durmadan artır.

***İnam Hacıyev***

# Gənclik Olimpiya hərəkatının flaqmanıdır!

*Vətənpərvər gənclər Avropa və Olimpiya Oyunlarında Azərbaycan bayrağını yüksəkliyə qaldırırlar*

Sağlam bədəndə sağlam ruh olar, - deyiblər. Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır. Əlbəttə ki, insan ruhunun sabitliyi, baş verən hadisələrə psixoloji baxımdan düzgün yanaşması fiziki sağlamlıq faktoru ilə sıx bağlıdır. Sağlamlıq ən böyük nemətlərdən olduğundan hər bir insan onu qorumağı bacarmalıdır. İdmanla məşğul olmaq insan sağlamlığının qorunmasında, ruh yüksəkliyinin artmasında müstəsnadır. Ölkəmizdə gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanıldığından bu sahənin inkişafı istiqamətində mühüm qərarlar verilir və sənədlər imzalanır.

Qeyd edək ki, bu gün Azərbaycanda Olimpiya Hərakatı öz inkişaf dövrünü yaşayır. Dövlətin idmana olan qayğısı baxımından Azərbaycan dünyada öndə gedən ölkələr sırasındadır. Xüsusi olaraq vurğulayaq ki, Azərbaycanda idman hərəkatı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başlayıb. Bununla da, demək olar ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Müasir dövrdə bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları, bir daha sübut edir ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir.

Olimpiya Oyunları dedikdə, yalnız idman yarışlarını, idman həyatının insanlara bəxş etdiyi dəyərləri dar mənada yox, geniş və fəlsəfi anlayış kimi qəbul olunur. Olimpiya Oyunlarının böyüklüyü idmançıların təkcə yarışlarda göstərdikləri idman nəticələri deyil, bu oyunlarda idmançı mənəviyyatı, onun kamil bir insan kimi formalaşması prosesinin reallaşdırılması, onun müqəddəs ideyalara xidmət etməsindən irəli gəlir. Olimpiya Hərəkatı sülh və əmin-amanlıqla daim yanaşı durmuşdur.Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 30 il əvvəl 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı. 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı böyük vüsət almağa başladı. Bu illər ərzində, Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya Hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. Beləliklə, uğurlar və nailiyyətlər Azərbaycan idmançılarını adına yazılmağa başladı.



## GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ EDİLMƏSİNDƏ İDMAN AMİLİ

Son illərdə ölkəmizdə 50-dən çox müasir Olimpiya mərkəzləri inşa olunub. İdmanın inkişafına geniş prizmadan yanaşılır və kompleks tədbirlər görülür. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətli idi. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, Bədii Gimnastika üzrə Dünya Kuboku, "Formula-1" kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdi və özünü dünyada idman ölkəsi olaraq tanıda bildi. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu. Azərbaycan 75 qızıl medalla birinci yeri qazandı. İdman arenalarında Azərbaycanın Dövlət Himninin 75 dəfə səslənməsi, təbii ki, böyük qürurdur.Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son illərdə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Əlbəttə ki, bu Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırır. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər. Dünya arenasında idman ölkəsi kimi tanınan Azərbaycanın idmançıları bu gün yarışlara qalib ölkənin nümayəndələri kimi qatılırlar. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək."Əlbəttə ki, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. "Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun" - deyən dövlət başçısı bildirib ki, məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı".

## "SON İLLƏR ƏRZİNDƏ AZƏRBAYCANDA VƏTƏNPƏRVƏR, GÜCLÜ, MİLLİ RUHDA TƏRBİYƏ ALMIŞ GƏNC NƏSİL YETİŞİB"

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib".

## "İDMAN SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ UĞURLAR, BAYRAĞIMIZIN QALDIRILMASI, HİMNİMİZİN SƏSLƏNDİRİLMƏSİ VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNİ DAHA DA GÜCLƏNDİRİRDİ"

Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir. "Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq"- deyə bildirən Cənab Prezident qeyd edib ki, bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik: "Bəli, bu məğlubiyyətin səbəbləri var idi, o vaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq."

## İDMANÇILARIMIZ MÜZƏFFƏR ÖLKƏNİ TƏMSİL EDİRLƏR

Azərbaycan xalqı qalib xalqdır və bu ifadəni işlədərkən böyük bir həqiqətin arxasında dayandığını görürük. Azərbaycan tarixi ədaləti bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən çıxışında "Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz", - deyən dövlət başçısı diqqətə çatdırıb ki, siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz: "Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar. Siz də beynəlxalq yarışlarda əlbəttə ki, müxtəlif ölkələrdə olursunuz. Əminəm, bəlkə də siz gənclər yox, - çünki siz təzə-təzə beynəlxalq yarışlarda iştirak etməyə başlamısınız, - amma böyüklər, məşqçilər, idman mütəxəssisləri mütləq görür ki, Azərbaycana münasibət nə dərəcədə dəyişmişdir. Çünki biz qalib ölkəni, müzəffər xalqı təmsil edirik".

İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. "Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz" - deyərək bildirib ki, bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq. Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafına diqqət ayrılacaqdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Dövlət başçısın qeyd etdiyi kimi, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir: "Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır".

***Nəzakət ƏLƏDDİNQIZI***

ARAŞDIRMA









# Məktəbli formaları necə olmalıdır?

**Eyni məktəbli forması olan şagirdlər geyimlərini müqayisə etmir və dərsə daha çox maraq göstərə bilirlər. Məktəbli formasının nə üçün lazımdır sualına cavabı 4 əsas başlıq altında toplamağa çalışdıq.**

**1. Bərabərlik**

Bərabərlik məktəbli formasının müdafiəsi zamanı ən çox istifadə olunan sözlərdən biridir. Çünki məktəbli formaları uşaqlara eyni geyinmək imkanı verir. Beləliklə, heç bir uşaq yeni paltar geyinmədiyi üçün psixoloji sarsıntı keçirmir.

**2. Aidiyyət hissi**



Məktəbli formasının nə üçün zəruri olduğu suallarından biri də aidiyyət hissini artırmasıdır. Bu xüsusən də köklü tarixi olan qurumlarda loqo (gerb) vasitəsi ilə "qurum"a mənsub olmaq qürur, prestij və böyük bir cəmiyyətin bir parçası olmaq deməkdir.

**3. Rahatlıq**

Uşaqları məktəbli forması geyinən valideynlər daha rahatdır. Bunun səbəbi məktəb paltarlarını rahatlıqla dolabdan çıxarıb geyinə bilmələridir. Bu, valideynlərin vaxtına və puluna qənaət edir.

Bundan əlavə, şagirdlər pula qənaət edərək növbəti ildə məktəbli formasını geyinə bilərlər.

**4. İntizam**

Şagirdlərin məktəbdə diqqətinin dağılmasının səbəblərindən biri də geyimləri ola bilər. Eyni məktəbli forması olan şagirdlər geyimlərini müqayisə etmir və dərsə daha çox maraq göstərə bilirlər.

"Bakı Tikiş Evi" ASC-nin satış şöbəsinin müdiri Etibar Əzimov məktəbli geyimləri ilə bağlı mətbuata açıqlama verib.

Etibar Əzimov deyib ki, məktəbli formalarının qiyməti onun rəngindən, formasından və parçanın keyfiyyətindən asılıdır: "Yeni məktəbli formasının nümunələri təsdiq olunub. Lakin qiymətlər məktəblərin seçimindən asılı olacaq. Məktəb hansı rəngdə, hansı parça növündən istəsə, qiymətlər ona uyğun müəyyən olunacaq", - deyə o əlavə edib.

Qeyd edək ki, Təhsil Nazirliyi hazırda istifadədə olan geyim formalarının 2022-2023-cü tədris ilinin sonunadək tətbiq edilməsinə icazə verildiyini, yeni geyim formaları tam tətbiq olunduqdan sonra şagirdlərin ümumi təhsil müəssisəsinə fərqli geyimdə gəlməsinə yol verilməyəciyini bildirib.

Məktəbli forması almaq qat-qat baha görünsə də, elə deyil. Məktəb paltarlarının qiymətləri istehsalçıdan birbaşa alındıqda çox baha olmur. Bəzi qurumlar istehsalçılardan aldıqları qiymətlərin üzərinə yüksək gəlir əldə etmək məqsədi ilə qiymətlər təyin edirlər. Valideynlər də təbii olaraq bu vəziyyətdən narahatdırlar.

## Azadlığa mane olmaq

Valideynlər məktəbli formasının övladının azadlığına maneə olduğunu düşünürlər.

## Cinsiyyətçilik

Qızları ətək və kişi şalvar geyinməyə məcbur etmək inkişaf etmiş cəmiyyət anlayışından çox uzaqdır.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspertlərin fikirlərini öyrənib.

**Təhsil eksperti Kamran Əsədov:** "Orta təhsil müəssisələrində vahid məktəbli formasından 2010-cu ildən istifadə edilməyə



başlanıb. Bu da tədrisin keyfiyyətinə öz müsbət təsirini göstərib. 12 il ərzində şagirdlər tərəfindən istifadə edilən məktəbli formalarının keyfiyyəti bizi qane etməyib. Çünki, kənardan gətirilən və keyfiyyətli olmayan məhsullar bazara öz diqtəsini edirdi.

Bunun nəticəsində də valideynlər aldıqları formalardan bir il müddətində belə istifadə edə bilmirdi. Lakin Nazirlər Kabineti tərəfindən yeni dizaynda məktəbli formalarının eskizləri hazırlanıb. Bu məktəbli formasında ilk dəfə olaraq qızlar üçün qış aylarında şalvar nəzərdə tutulub.

Eyni zamanda, bu məktəbli formalarında "dresskod"lar olacaq. Bunun vasitəsilə əvvəlki illərdən fərqli olaraq şagirdlər məktəbdən başqa yerlərdə bu formalardan istifadə edə bilməyəcək. Bu da gigiyena baxımından çox yaxşıdır. Ötən illərdən fərqli olaraq artıq həm yay, həm də qış üçün formalar olacaq. Bu valideynləri iki dəfə forma almağa məcbur edə bilər, amma hesab edirəm ki, qiymətlər əlçatan olacaq. Valideynlər yalnız məktəbin pedaqoji şurası tərəfindən qəbul edilmiş formanı ala bilər. Çünki bütün məktəbli formaları eyni olmalıdır.

Məktəbli formalarının qiyməti ilə yanaşı, keyfiyyətinə də nəzarət edilməlidir. Bəzi ailələrin maddi çətinlikləri onlara hər dəfəsində yeni forma almağa imkan vermir. Ona görə də elə keyfiyyətli formalar hazırlanmalıdır ki, qərara əsasən üç il müddətində yeni formaya ehtiyac duyulmasın".

**Psixoloq Zeynəb Əyyubova:** "Əslində, Təhsil Nazirinin bunu etməkdə məqsədi, maddi imkanı aşağı və ya yüksək olan uşaqların bir-birindən fərqlənməməsidir. Hər bir şagird standart geyimdə olsun və bununla da onların düşüncəsində varlı-ka-



sıb anlayışı yox olsun. Amma buna belə gücü çatmayan valideyn hər hansısa sosial qurumlara müraciət edə bilər.

Ehtiyac olan ailələrə sosial qurumlar müəyyən qədər yardım edər. Lakin bütün məktəblərdə olacaq standart formanın qiyməti də hər bir ailəyə uyğun olacaq deyə düşünürəm. Bu da müəyyən baxımdan maddi problemlərin aradan qalxmasına kömək edə bilər".

**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Yeni məktəbli formaları ilə bağlı standart qiymətlər olacağını düşünürəm. Hətta bu il qiymətlər bir az arta da bilər. Formaların qiyməti 48-50 ma-



natdan 100 manata qədər müəyyənləşdirilə bilər. Əlbəttə, hər il formaların yenilənməsi bütün valideynləri narahat edən məqamdır. Hər il yeni forma almaq maddi cəhətdən ailələrə ziyan verir. Lakin son qərara əsasən formalar üç ildən bir yenilənəcək.

Digər xarici ölkələrə nəzər yetirsək, orada da formaların yeniləndiyini, lakin bunun 2-3 ildən bir baş tutduğunu görərik. Azərbaycanda da formaların yenilənməsi üç, hətta beş ildən bir həyata keçirilməsi daha məqsədəuyğundur. Eyni zamanda, bu formalara milli ornamentlərin əlavə olunması da yaxşı olardı.

Düşünürəm ki, növbəti illərdə liseylər istisna olmaqla, digər təhsil müəssisələrində sərbəst geyimə icazə verilməsi məqsədəuyğun olar. Bu, valideynlərin öz büdcəsinə görə övladına geyim almaq imkanı yaradar".

*Ayşən Vəli*

**Azərbaycanda yeni növ koronavirus "COVID-19" pandemiyası iki ildən artıqdır ki, davam edir. Nəinki Azərbaycan, eləcə də dünyanın ən inkişaf etmiş ölkələri qısa bir zamanda bunun qarşısını almaqda səfərbər oldular. Dünya səhiyyəsi bu pandemiya ilə mübarizədə hansısa vasitələrdən istifadə etmiş olsa da hələ də gizli düşmənə qalib olduğunu göstərə bilməyib. Bu müddət ərizində ölkəmizdə virusa qarşı qabaqlayıcı tədbirlər görüldü. Dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışı xalqımızı pandemiyaya qarşı mübarizədə həmrəyliyə səslədi.**




# "COVID-19" pandemiyası: estafet vətəndaşlardadır!

Dövlət başçısının tapşırığı və sərəncamları ilə təxirəsalınmaz tədbirin həyata keçirilməsinin nəticəsidir ki, bu günün mənzərəsi dünya ölkələri ilə müqayisədə aydın görünür Gizli düşmənlə üz-üzə qalmaq, onunla mübarizə aparmaq nə qədər çətin olsa da, Azərbaycan həyata keçirilən tədbirlər dünа dövlətlərinə bir nümunə və model olaraq təqdim olundu. Məlumdur ki, bu pandemiyadan ən çox əziyyət çəkən dövlətlər sırasında ABŞ, Hindistan, Braziliya kimi dövlətlər liderlik edirlər. Ötən həftə dünyada 10 milyondan çox insan koronavirusa yoluxması və 45 mindən çox insanın bu xəstəlik nəticəsində həyatını itirməsi hələ də COVID-19 virusunun meydan oxumasından xəbər verir. Əvvəlki yeddi gün ilə müqayisədə ölüm hallarının sayı 43 faiz artıb, yoluxanların sayı isə 14 faiz azalıb.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına istinadən dünyada həftə ərzində bütün yeni yoluxma hallarının 49 faizi Avropanın payına düşür. Bu regionda yoluxma sayı 4 faiz azalıb. Ölüm hallarının artımı Amerikada (182 faiz) və Cənubi-Şərqi Asiyada (116 faiz) qeydə alınıb. Qalan regionlarda ölüm hallarının nəzərəçarpacaq dərəcədə azaldığı müşahidə edilib: Afrikada (30 faiz), Şərqi Aralıq dənizi regionunda (22 faiz) və Avropada (17 faiz).

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına nəzər yetirsək isə görərik ki, son günlərin




statistik göstəricilərində yoluxma, ölüm halları kəskin şəkidə azalıb. Belə ki. iki rəqəmli yoluxma faktları qeydə alınır. İndiyədək ölkədə ümumilikdə, 791 min 876 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 781 min 865 nəfər müalicə olunaraq sağalıb, 9 min 691 nəfər vəfat edib. Aktiv xəstə sayı 320 nəfərdir.

Əlbəttə ki, yeni qlobal pandemiya - koronavirus COVID-19 infeksiyası Yer kürəsini, eləcə də ölkəmizin vətəndaşlarının sağlamlığını təhlükə altına aldığı bir zamanda Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli iradəsi və təşəbbüskarlığı sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atıldı.

Əlbəttə ki, yoluxma sayındakı rəqəmlər arxayınçılıq yaratmır. Sərhəd tanımayan qorxunc infeksiyanın ölkəmizdə yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər davamlı həyata keçirilir. COVID-19 pandemiyası zamanı hər bir dövlətin öz strategiyası, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və öz metodları mövcuddur. Şübhəsiz ki, hər bir ölkə öz vətəndaşlarını böhrandan az itki ilə çıxartmağa çalışır.




## DÖVLƏT-VƏTƏNDAŞ ETİMADI

Yaşadığımız zamandan bizə aydın oldu ki, yoluxma və ölüm saylarındakı artım vaksinasiyanı qaçılmaz etdi. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanıldı. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Nazirlər Kabineti tərəfindən qəbul olunmuş "Vaksinasiya Strategiyasına" əsasən artıq xeyli sayda insanlar peyvənd olunub və vaksinasiya prosesi bu gün də davam edir. Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmə vacibdir. Vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer", "Sinovac" kimi peyvəndləri istifadə edilir.

İnfeksiyaya qarşı mübarizədə Azərbaycan xalqı məsuliyyət, yüksək nizam-intizam və ən başlıcası, milli həmrəyliyə, hər cür fədakarlığa hazır olduğunu nümayiş etdirdi. Ümumiyyətlə, ölkəmizdə, sözün əsl mənasında, vətəndaş-dövlət etimadı mövcuddur. Görülən tədbirlər nəticəsində minlərlə insanın həyatı qorunub. Vaxtında atılan addımlar, verilən müdrik qərarlar, həyata keçirilən layihələr bir daha sübut edir ki, möhtərəm Prezidentimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xalqının rifahı onun üçün hər şeydən üstündür.

Onu da vurğulamaq yerinə düşər ki, artıq biz bu pandemiya ilə yaşamaq məcburiyyətindəyik. İnsan orqanizmi bu virusu tanımalı və ona qarşı immunitet formalaşmalıdır.

Bu gün isə hər bir vətəndaş bu virusa qarşı həmrəyliyini davam etdirməlidir. Bütün qurumlar, müəssisələr, obyektlər hazırlanmış təlimatlara riayət etməlidirlər. Sanitar qaydalara əməl etməməsi yoluxma sayının daha da artmasına səbəb ola bilər. Virusun yayılmasının qarşısının alınması üçün bütün mümkün imkanlardan istifadə edilib və bu proses bu gün də uğurla davam etdirilir.

Nəzakət ƏLƏDDİNQIZI



## Modul tipli xəstəxanaların fəaliyyəti niyə dayandırılıb?

Koronavirusa yoluxma sayında müşahidə edilən azalma ilə əlaqədar olaraq Azərbaycanda bəzi pandemiya müəssisələri və modul tipli xəstəxanaların fəaliyyəti dayandırılıb. Bəs, bu nələrə səbəb olacaq? SİA məsələ ilə bağlı həkim deputat Müşfiq Məmmədlinin fikirlərini öyrənib. Onun sözlərinə görə, yoluxma sayının azalması pandemiya üçün fəaliyyət göstərən xəstəxanalardakı xəstələrin sayına da öz təsirini göstərib: "Ümumiyyətlə, modul tipli xəstəxanaların əksəriyyətinin fəaliyyət göstərməsinə ehtiyac qalmayıb. Ona görə də bu qapanmalar təbiidir".

Müşfiq Məmmədli sözlərinə belə davam edib: "Bu xəstəxanalar digər sahələrdə də, həmçinin hansısa infeksion prosesdə istifadə etmək mümkündür. Modul tipli xəstəxanaların tibbin digər sahələrinə yönəldiləbiləcəyini də qeyd etmək olar".

*Ayşən Vəli*

# Dünyanın sonudurmu?

# Nüvə

## müharibəsi hər an ola bilər…



***Dünyanın diqqəti Ukraynada gedən müharibəyə fokuslandığı bir vaxtda hər kəsi bir sual düşündürür, nüvə müharibəsi ehtimalı nə qədər realdır? Əslində hadisələr o qədər kəskinləşib, tərəflərin əsəbləri o qədər gərilib ki, nüvə düyməsinin basılmayacağına heç kim zəmanət verə bilməz. Tərəflər nüvə ölkələridir. Söhbət Rusiya və onu Ukraynada müharibə bataqlığına çəkən Qərbdən - NATO-dan gedir***

Hadisələrin inkişafı apokaliptik ssenarilərini daim gündəmə gətirir. Təəssüf ki, bəşəriyyət bunu əngəlləyə bilmək gücündə deyil. Baxmayaraq ki, nüvə çamadanı daşıyan şəxs də bəşər övladı sayılır, amma siyasi maraqlar, qlobal yanaşmalar həmin şəxslərin bəşəri düşüncələrini tamamilə silib, beynini yuyub aparıb. Dünyada baş verən son hadisələr fonunda bu mövzu xüsusi aktuallıq kəsb edir, ona görə də bu mövzuda bəzi fikirlərimizi bölüşmək qərarına gəldik.

### Nüvə ölkəsi, yoxsa supergüc?

Hər kəsə məlumdur ki, hazırda dünyada nüvə ölkələri çox olsa da, yalnız bir super güc var - ABŞ. Tarix göstərir ki, bütün qüdrətli dövlətlər öz maraq dairəsini maksimum dərəcədə artırmağa çalışırdılar. Roma, Britaniya və Rusiya imperiyalarında da belə idi. Amerika da istisna deyil: hakimiyyətdə olanlar yaxşı bilirlər ki, dün-



yada təsir dairəsinin genişlənməsinin dayandırılması fövqəldövlətin qaçılmaz ölümü deməkdir.

ABŞ-ın digər imperiyalardan fərqi ondadır ki, birincisi, amerikalıların çox böyük nüvə ehtiyatı var, o cümlədən hökumət hələ də öz ölkəsində möhkəm hakimiyyətini qoruyub saxlayır, ən əsası isə həmişə xarici siyasətini təkmilləşdirir, iştahını artırır.

Bu arada milli maraqlarını zərrə qədər də qurban vermək istəməyən daha iki güclü dövlət var - Rusiya və Çin. İki fırtına cəbhəsi və ya iki tektonik plitələr kimi, bu günün böyük dövlətləri arasında maraqların toqquşması gəlir. İnsan nə qədər ağıllı olsa da, cəbhənin hər iki tərəfində hansı beyin mərkəzləri işləsə də, insan hələ öz içindəki köhnə təbii instinktlərə qalib gələ bilmir. Bunu anlamaq üçün dünyada baş verənlərə nəzər salmaq kifayətdir.

Nə üçün fəlakət yaxın gələcəkdə baş verəcək? Gəlin ilk növbədə, aşağı-yuxarı gedən maliyyə bazarlarına baxaq. Bazarlara xas olanlar tsiklikliyi müharibələrdə də müşahidə edirik: böhranın ardınca müharibə gəlir, ondan sonra formalaşma dövrü başlayır və s. Lap seysmik cəhətdən qeyri-sabit ərazilərdə baş verən zəlzələlər kimi. Nəzərə alsaq ki, bəşəriyyət böyük müharibələr və sarsıntılar olmadan da yaşayıb, sürətli eniş baş verəndə uçurumun kənarına gəldiyimizi düşünmüşük. Deməli, fəlakətin yaxınlaşdığına dair tarixi, təbii və hətta maliyyə siqnalları var. Bəs Karib böhranında nüvə müharibəsinin qarşısı alınıbsa, bu, indi niyə baş verməsin? Paradoksal olaraq, cavab texnologiyanın inkişafında və o vaxtdan bəri toplanmış biliklərdədir. Fakt budur ki, həm amerikalılar, həm də ruslar bir sadə şeyi başa düşdülər: nüvə müharibəsi heç də həmişə bəşəriyyətin tamamilə yox olması və ya planetin ölümü demək deyil. Bunun sübutu Çernobıl faciəsi və ya 1945-ci ildə Yaponiya şəhərlərinin nüvə bombaları ilə bombalanması, eyni zamanda 2011-ci ildə yaponiyanın Fukuşimo bölgəsindəki atom reaktorunda baş vermiş qəzadır. Az adam bilir ki, Çernobıl qəzası nəticəsində ilk 3 ayda cəmi 31 nəfər, il ərzində isə 100-ə qədər insan həlak olub. Fukuşimo faciəsinin fəsadları da az deyil. Radioaktiv yanğının episentrində olan qəhrəman insanlar hər şeyi gözləri ilə görmüşdülər. Digər bir hadisə, Xirosima və Naqasakiyə həyat tez bir zamanda qayıtdı və indi orada təxminən 1,6 milyon insan orta ömür uzunluğu 80 il yaşayır.

Onda belə görünür ki, ABŞ və Rusiya müharibəyə, hətta nüvə müharibəsinə başlaya bilər. 2014-cü ilin sonlarında Rusiya Ukraynanın şərqini işğal etdikdən və rus ordusu ABŞ-ın müttəfiqləri olan qonşu NATO ölkələrini hədələyəndə nüvə silahından istifadə aktuallaşmışdı. Bu gün də Rusiyanın Ukraynaya qarşı apardığı müharibədə nüvə silahından istifadə variant aktuallaşmışdı. Bu gün də nüvə silahından istifadə olunacağı istisna deyil.

Analitiklər və siyasi liderlərlə söhbətlərdən belə başa düşmək olar ki, ABŞ, Qərbi Avropa və Ru-



siyada getdikcə artan insanların sayı müharibənin reallığını artırır. Onlar indiki Avropanı Birinci Dünya Müharibəsindən əvvəlki Avropa ilə müqayisə edirlər. Müharibə başlasa Rusiyanın nüvə düyməsinə basmayacağı mümkün deyil. Bunu aktuallaşdıran, Rusiyanı nüvə düyməsini basmağa təhrik edən səbəblər var və onların birincisi NATO tərəfindən günbəgün artan təhdidlərdir. Bu təhdidlərin necə yarandığını və nə baş verə biləcəyini təsəvvür etmək çətin deyil. Ancaq bir suala qənaətbəxş cavab vermək olmur: bütün bunlar nə dərəcədə mümkündür?

Rusiyalı analitik Fyodor Lukyanov Moskvanın xarici siyasət elitasında artan narahatlıdan bəhs edib. O qeyd edib ki, müharibənin başlama ehtimalı həqiqətən yüksəkdir, çünki insanlar narahat olmağa və bu barədə ciddi düşünməyə başlayırlar, amma bunu dəqiq heç kim müəyyən edə bilməz. Məsələn, ehtiyatsız Şimali Koreya ciddi şəkildə nüvə silahına əl atmaq qərarına gəlsə, bu müharibə necə olacaq? ABŞ-dan tutmuş Şimali Koreyaya kimi hansı ölkə nüvə düyməsini ilk basıbsa, simmetrik cavabın olacağına şübhə yoxdur. Məsələn, Pxenyana raket düşsə, hansı məkan dərhal radioaktiv küllə örtüləcək və harada həyat qorunacaq? Aydındır ki, bu bilik indi sırf nəzəri maraq doğurur. Ancaq nüvə münaqişəsi baş verərsə, o, dəyərini artıracaq, çünki bu bilik hələ sağ olan hər kəs üçün qaynar bir əmtəəyə çevriləcəkdir.

Mütəxəssislər hesablayıblar ki, müasir nüvə hücumu ilə insanların yaxınlaşan apokalipsis haqqında xəbərdarlıq almasından partlayış anına qədər on dəqiqə vaxt olacaq. Müasir raketdən müdafiə sistemlərinə malik olan hökumətlər xəbərdarlıqları daha əvvəl alırlar, lakin onlar da gələn raket haq-



qında məlumatı ictimai xəbərdarlıq sisteminə atmaq üçün vaxt alırlar. Buna görə də, təhlükəsiz sığınacağa qaçmaq üçün on dəqiqəlik hazır vəziyyət insanlar üçün daimi olacaq. Bir milyon insan dərhal həyatla vidalaşacaq.

Amerikalı ekspertlər hesablayıblar ki, Hyustona hücum olarsa, 35 min insan dərhal həlak olacaq, 100 minə yaxın adam ağır yaralanacaq, amma sığınacaqsız, istiliksiz, yeməksiz, susuz qalan daha yüz minlərlə insan öz başlarına bəladan çıxmalı olacaqlar.

Ola bilər ki, onlar bəzi şəhərlərin əhalisini evakuasiya etməyə çalışacaqlar, lakin bunun mümkün olub-olmayacağı, evakuasiyanın harada aparılacağı barədə heç kim əvvəlcədən məlumat verə bilməz ki, bu da xaosun qaçılmaz olduğunu göstərir.

### Biskvit və top

Nüvə raketlərini buraxmaq üçün ABŞ prezidentinə düymə yox, iki başqa şey də lazımdır: nüvə biskviti və nüvə futbol topu. Prezident Kennedidən bəri bu belədir.

Nüvə biskviti deyilən şey bank kartı ölçüsündə plastik parçasıdır və üzərində nüvə raketlərinin buraxılması əmrini vermək üçün lazım olan parollar yazılmışdır. Prezident bu biskviti həmişə yanında saxlamağa borcludur, baxmayaraq ki, çoxları bunu pozur. Şayiələrə görə, prezident Cimmi Karter bir dəfə kostyumla birlikdə kimyəvi təmizləyiciyə peçenye göndərib və prezident Bill Klinton ikinci müddətinin sonunda onu itirib və cəmi bir neçə ay sonra xatırlayıb.

Prezident Ağ Evi tərk edərkən nüvə futbol topu işə düşür. Təxminən 20 kq ağırlığında olan ağır dəri portfelə futbol topu deyilir. Prezident üçün hara gedirsə, bu portfeli növbətçi əsgər aparır. Trampın dövründə internetdə təkcə topun şəkli deyil, həm də onları geyən şəxsin (beş nəfərdən birinin) portreti peyda olub.

İndi isə topun özü haqqında. Ağ Evin Müharibə Departamentinin keçmiş direktoru Bill Qullinin 1980-ci ildə yazdığı "Parçaları yırtmaq" adlı xatirə kitabında yazdığı kimi, futbol topunda dörd şey var: mümkün hərbi strategiyaları sadalayan qara kitab, məxfi nüvə obyektlərinin yerləri haqqında məlumatlar olan ayrıca kitab, fövqəladə vəziyyət xəbərdarlığı sisteminin işə salınması proseduruna dair on səhifəlik təlimatı və parol kartını ehtiva edən qovluq. Topdan bir anten çıxır, o, həmçinin Pentaqondakı hərbi komandanlıq mərkəzi ilə əlaqə sistemini ehtiva edir.

Futbol topları vaxtaşırı dəyişdirilir, lakin onların hamısı Utahda qeydiyyatdan keçmiş Zero Halliburton şirkəti tərəfindən hazırlanır.



İlk futbol topu Karib böhranından dərhal sonra, prezident Con Kennedi Pentaqonun və nüvə raketinin buraxılışını həyata keçirən hərbçilərin buraxılış əmrinin prezidentdən gəldiyinə necə əmin ola biləcəyini anlamağa başlayanda ortaya çıxdı. Keçmiş dövlət katibi Robert MakNamaranın sözlərinə görə, portfel futbol topu kimi tanınıb, çünki nüvə müharibəsi üçün ilk planlardan birinin kod adı Dropkick əməliyyatı olub.

Əslində üç top var: biri həmişə prezidenti olduğu yerdə müşayiət edir, ikincisi vitse-prezidenti hər yerdə izləyir, üçüncüsü isə Ağ Evdəki anbarda saxlanılır.



Bütün bu detallar çoxdan məlum olsa da, qırmızı düymə və ya qırmızı telefon ideyası Amerika təxəyyülündən heç vaxt itməyib. 1980-ci illərdə qırmızı düymənin yerinə qırmızı telefon tez-tez istifadə olunurdu. Dövrün satirik eskizlərindən birində Ronald Reyqanın çarpayısının yanında iki belə telefon var: birində Nukes (nüvə raketləri), digərində tibb bacısı (dayə) deyilir. Bir anda Reyqan Nukes telefonunu götürərək pizza sifariş etmək qərarına gəlir, lakin onun yerinə raketlər buraxır, çünki yadda saxlamaq asanlığı üçün buraxılış parolları ən populyar pizzaların adları idi.

### Nüvə çamadanı

Rusiyada strateji raket qüvvələri ilə əlaqə saxlamaq üçün çamadan da istifadə olunur ki, bu da həmişə xüsusi çanta ilə müşayiət olunur. Çamadan "Cheget" adlanır, onun tərkibində strateji nüvə qüvvələri üçün avtomatlaşdırılmış idarətmə sisteminin terminalı var, orada şifrələr daxil edilir. Avtomatlaşdırılmış sistem "Kazbek" adlanır, o, 1980-ci illərin əvvəllərində Moskva NIIAA-da hazırlanmışdır (AA "avtomatik avadanlıq" deməkdir).

Rusiyada nüvə raketlərinin buraxılması üçün üç xüsusi uzaq çamadan var: biri prezident üçün, biri müdafiə naziri üçün, digəri isə ehtiyat. 1990-cı illərin ortalarından bəri prezidenti və müdafiə nazirini müşayiət edən zabitlər Federal Təhlükəsizlik Xidməti-



nin üzvləri olsalar da, tünd göy rəngli donanma forması geyinirlər. İlk dəfə nüvə çamadanı ilə Çernenko gəzib.

İndi bir sual bəşəriyyəti daha çox düşündürür, müharibələrin artdığı, nüvə ölkələrinin də cəlb olunduğu savaşlarda nüvə silahından istifadəyə moratoriumun tətbiq edilməsi nə qədər etibarlıdır? Amma hadisələr arxayınlaşmağa əsas vermir, nüvə düyməsi hər an basıla bilər ki, bu da dünyanın sonu deməkdir. Ukraynada dünyanın iki qütbünün, anbarları nüvə silahları ilə dolu olan güclərin qarşılaşması bəşəriyyətin məhz kütləvi qırğın silahından məhvolma riskini artırır. Dünya insanları hər hadisəyə hazır olmalıdırlar

***V.VƏLİYEV***

## Çavuşoğlu:
## "Azərbaycan Ermənistana əhatəli sülh razılaşması təklif edib"

Azərbaycan Ermənistana əhatəli sülh razılaşması təklif edib. SİA-nın məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "A Haber" telekanalına müsahibəsində deyib. O, Türkiyənin Ermənistanla normallaşma prosesində Ankaranın Bakı ilə məsləhətləşmədən ciddi addımlar atmadığını bildirib. "Qarabağ müharibəsi başa çatdıqdan sonra biz yalnız müsbət mesajlar vermişik. Azərbaycan əhatəli sülh razılaşması irəli sürüb. Ermənistanın bu təklifi qəbul etməsi lazımdır", - M.Çavuşoğlu deyib.



## "Ramazan ayı Qurani-Kərim oxumağın baharı sayılır"

"Mübarək Ramazan ayında Allah-Taalanın qadağan etdiyi işlərdən imtina etmək, orucu batil edən əməllərdən uzaq durmaq vacibdir". Bu fikirləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov bildirib.

Onun sözlərinə görə, oruc tutan şəxsin yemək yeməsi, su içməsi, istənilən bir şeyin qida borusundan keçməsi günahdır: "Hətta torpağın yeyilməsi belə günah sayılır. Allahın, peyğəmbərin və ya imamın adından yalan demək olmaz. Mənasını bilmədiyimiz hadisələri demək, ayələri yalandan demək olmaz. Bəzi əməllər də var ki, orucun yaradacağı mənəvi təsirləri yox edir. Qeybət etmək, əsəbləşmək, insanlara ziyan vurmaq bu qəbildəndir. Müqəddəs Ramazan ayında mümkün qədər ibadət etmək, Qurani-Kərimi oxumaq lazımdır. Ramazan ayı Qurani-Kərim oxumağın baharı sayılır. Əsas məqamlardan yoxsullara baş çəkmək, iftar süfrələri təşkil etməkdir. İftar süfrələrini mümkün qədər sadə təşkil etmək lazımdır. İsrafçılığa yol verməmək olmaz. Bu ayda rəhimli davranmaq, namaz qılmaq, Ramazan ayının hökmlərini öyrənmək lazımdır. Bir sözlə, bu mübarək ay 11 ay cəhənnəm işləri ilə məşğul olanlar üçün bir növ cənnət işləri görmək ayıdır. Bu dünya cəhənnəmində bir növ cənnətdir. Allah oruc tutan hər kəsin orucun qəbul eləsin".



***Abutel İlhamqızı***

## Yeni qərar sui-istifadə hallarına son qoyacaq, yoxsa....



"Hazırda Nazirlər Kabinetinin sudan istifadə ilə bağlı qərarında əsas məqsəd suya qənaət edilməsi, o cümlədən də su ehtiyatlarının düzgün idarə olunması və daha sonra su uçotunun doğru aparılmasıdır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, qərarda açıq və örtülü su hövzələrindən, çaylardan, yeraltı sulardan istifadə edərkən əgər, avadanlıqlardan, texniki qurğulardan istifadə edilirsə, ödəniş olunmalıdır: "Amma eyni zamanda da bildirilir ki, hamı üçün açıq olan, kütləvi istifadə məqsədi olan hallar istisnadır.

Tariflər hələ ki, verilməyib. Amma mütləq şəkildə tariflər differensiyalı həyata keçirilməlidir. Çünki bu qiymətlərin müəyyənləşdirilməsi ədalət prinsipinə ciddi şəkildə əməl olunmasının və hər sahəyə özünəməxsus formada qiymətin təyin olunmasını zəruri edir. Digər vacib bir məsələ isə bu tariflər mümkün olan ən minimum hədlərlə müəyyən edilməlidir. Çünki bu iqtisadiyyatın sahələrinin, su təsərrüfatından asılı olan sahələrinin, ən əsası kənd təsərrüfatı sahələrinin inkişafına mənfi təsir göstərə bilər. Bu, ən çox kənd təsərrüfatı məhsullarının maya dəyərinin bahalaşmasına və nəticədə qiymətin bahalaşmasına gətirib çıxarda bilər".

***Arzu Qurbanzadə***

## Armen Badalyan:
## "Ermənistanın vilayətə çevrilməsi prosesinə başlanacaq"



"Əgər Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı uğursuzluğa düçar olarsa, onda Qarabağda lokal hərbi əməliyyatlar yenidən başlayar ki, bu da onun tam olaraq Azərbaycanın nəzarətinə keçməsi ilə nəticəsini tapar. Bununla yanaşı, rusiyalı sülhməramlılar nəzarət etdikləri əraziləri tərk etmək məcburiyyətində qalacaqlar".

SİA xəbər verir ki, bu barədə erməni KİV-nə erməni politoloqu Armen Badalyan deyib.

Onun sözlərinə görə, belə olan halda Azərbaycan və Türkiyə Zəngəzur dəhlizi məsələsini hərbi vasitə ilə həll edəcəklər ki, bundan sonra Ermənistanın vilayətə çevrilməsi prosesi başlayacaq. "Ermənistanın hakim rejiminə öz adamlarını təyin etmək üçün Türkiyə və Fransa arasında mübahisənin də yaranacağını istisna etmirəm".

***Rövşən RƏSULOV***

# Hind yarmarkasında qeyri-adi anlar yaşandı

**Martın 26-da Bakı İdman Sarayında BEST OF INDIA - Hindistan məhsullarının ən böyük ekskluziv ticarət sərgisinin 8-ci buraxılışının Hindistanın Azərbaycandakı səfiri cənab B. Vanlalvavna, Azərbaycan Respublikası Ekologiya Nazirinin müavini cənab Firdovsi Əliyev və Yun və Yun Məhsullarının İxracının Təşviqi Şurasının sədri cənab Sanjeev Dhir tərəfindən birgə rəsmi açılışı olub.**

Sərginin 9 günü ərzində Hindistanın 60-a yaxın şirkəti düyü, çay, ədviyyatlar, hədiyyələr, əl işləri, ev mebeli kimi yüksək keyfiyyətli məhsul və xidmətlərini nümayiş etdirəcək. Sərgi 2022-ci ilin martın 26-dan aprelin 3-dək saat 11:00-dan 19:00-dək davam edəcək. Sərgiyə giriş ödənişsizdir.

Əsl Hindistan çayının dadına baxılması üçün sərgi salonunda Səfirlik tərəfindən təşkil olunan stend çoxlu sayda ziyarətçi cəlb edir. Sərgidə Hindistan turizmi, mədəniyyəti, eləcə də Hindistanda investisiya imkanlarına dair təqdimat videoları da nümayiş etdirilib. Sərginin açılış günündə ziyarətçi sayı gözləniləndən qat-qat çox idi. Ənənəvi hind rəqsləri, Bollivud mahnıları ifaları və xına (Mehndi) stendləri böyük marağa səbəb olub.



Biz də SİA olaraq hind yarmarkasından reportaj hazırladıq. Buradakı stendlərə yaxınlaşdıq, qiymətlərlə maraqlandıq.

**Satıcı Ləman Tahirova:** "Bizim stenddə əsasən çantalar, şal, geyim və bijuteriyalar satılır. Bijuteriyaların hər biri naturaldır, rəngi getmir, xüsusilə də dəridə allergiyaya səbəb olmur. Şallar 5 manat, bijuteriylar isə 25 manata qədər olur. Geyimlər isə 30 manat təşkil edir. Alıcı sayı yaxşıdır, xüsusilə də həftə sonları daha yaxşı olur".

**Satıcı Aysel Əliyeva:** "Biz daha çox bijuteriya və çantalar satırıq. Çantalarımızın da bir çoxu əl işidir. Eyni zamanda xına da çəkirik. Qiymət aralığı da 5-20 manat aralığında dəyişilir. Alıcı sayı isə daha çox həftə sonları olur".





**Satıcı Yavər Novruzov:** "Bizim stenddə çay və sarıkök satılır. Həm qara, həm də meyvəli çaylar satılır. Lakin daha çox qara çaya üstünlük verilir. Qiymət aralığı isə 8, 12, 15 manat aralığındadır. Hər biri Hindistan çaylarıdır".

**Satıcı Suzana Tatar:** "Bizim stenddə fincanlar, süd qaynatmaq üçün xüsusi qablar satılır. Çünki hindlilər çayı süd ilə içirlər. Fincanların qiyməti 14 və 18 manatdır. Qabların qiyməti isə 38 personada 130 manata qədər təşkil edir".

**Satıcı Mənzurə Məhərrəmova:** "Mərmər daşlarından suvenirlər satırıq. 5 manatdan başlayaraq qiymət 300 manata qədər davam edir. Alıcılar da olduqca çoxdur. İnsanlar bu əşyalara maraqla yanaşırlar. Daha çox isə şam qablarına üstünlük verilir".

Hind yarmarkasının açılışından günlər keçməsinə baxmayaraq, yarmarkarda insan sıxlığı hələ də hökm sürürdü. Biz də yarmarkadakı şəhər sakinlərinin təəssüratlarını öyrəndik.

**Şəhər sakini Nərgiz Əliyeva:** "Ölkəmizdə bu cür yarmarkaların keçirilməsi məncə çox önəmlidir.



Buradakı qiymətlər də məni qane etdi. Ümidvarıq ki, digər ölkələrin də bu cür yarmarkaları təşkil olunar və biz də bir çox mədəniyyətlərlə tanış ola bilərik".

**Şəhər sakini Adilə Muxtarova:**

"Qiymətlər düşünürəm ki, normaldır. Şal, çaydan və qolbaq aldım. Çox sevinirəm ki, ölkəmizdə bu cür tədbirlər keçirilir".



**Şəhər sakini Paşa Məmmədov:** "Ümumi olaraq belə bir tədbirin keçirilməsi çox yaxşıdır. Lakin fikir verdim ki, bir çox stendlərdə xüsusilə də, çay və ətirlərin kodlarına nəzər saldıqda, başqa ölkələrə aid olduğunun şahidi oldum. Düşünürəm ki, bu cür hallar olmasa daha yaxşı olardı".

**Şəhər sakini Nərmin Hüseynova:**

"Mən əlimə xına çəkdirdim.



Ümumi olaraq çox xoşuma gəldi. Lakin düşünürəm ki, geyimləri daha çox ola bilərdi".

**Şəhər sakini Aydan Hüseynova:**

"Əslində bir çox şeyi olduqca bəyəndim. Lakin gözləyirdim ki, burda hind təamlarını dada biləcəyimiz bir stendə də olsunlar. Sadəcə çay verilirdi, onun isə dadında fərqlilik yox idi".

***Səbinə Hüseynli***

REPORTAJ

# Tarixin ən dəhşətli soyqırımı: 31 mart 1918-ci il

1917-ci il Oktyabr çevrilişi rus müstəmləkəçilərinə yeni qüvvə verdi. Qafqaz cəbhəsindən Rusiyaya dönən rus döyüşçüləri bolşeviklərin fitnəkarlığı sayəsində öz yollarını Bakı istiqamətinə saldılar. Daxil olduqları bölgələrdən Azərbaycan kəndlərinə hücum edir, talançılıqlar törədirdilər. Rus əsgərləri aclıq və təcrid içərisində olduqlarından Bakı Sovetinin qulluğunda olmağı əsas tuturdular. Başqa bir səbəbdən isə Qafqaz cəbhəsindən qayıdan rus qoşunları öz silah və hərbi sursatını erməni və gürcülərə, eləcə də Bakı bolşeviklərinə verməklə azərbaycanlılar düşmən qarşısında əliyalın qalmışdı. Belə Cənubi Qafqaz Komissarlığındakı Azərbaycan fraksiyası tam şəkildə silahlanmaq tələbini irəli sürdü. Bakı Soveti geri qayıdan rus polklarından birinin tərkisilah edilib, onların silahlarını azərbaycanlılara verilməsinə razılıq verdi. Bunun əsasında 1918-ci ilin yanvarından Şamxor stansiyasından keçən rus polku tərksilah edildi. Döyüş zamanı hər iki tərəfdən ölən və yaralanan olsa da, bu şərait Azərbaycan əhalisi üçün zəruri idi. S.Şaumyan başda olmaqla bolşeviklər bundan milli qırğın törətmək və xalqımıza güc tətbiq etmək üçün səy göstərdilər. Lakin onların bu təxribatı baş tutmadı. Bolşeviklər və erməni əsgərləri Bakıda özlərini hərbi cəhətdən möhkəmləndirmək üçün yeni bir addım atmağı qərara aldılar. 1917-ci ilin dekabrında Qafqaz ordusunun II diyar qurultayında Q.Korqanovun başçılığı altında yaradılmış Hərbi İnqilabi Komitə Tiflisdən çıxarılaraq Bakıya köçürüldü. Bundan əlavə 1918-ci ilin yanvarın sonunda Qırmızı Qvardiya və donanmanın Bakı sovetinə tabe edilməsi haqqında qərar verildi. Ter-Stepanov, Afanasev və Trexovdan ibarət Qırmızı Qvardiya qərargahı yaradıldı. 1918-ci il martın ilk günündə milis dəstələri Bakı Sovetinin nəzarətinə keçdi. Ter-Qabraelyan şəhər idarəsinin rəisi təyin olundu. Martın 3-də S.Şaumyan İ.Stalinə məktub yazaraq Bakı şəhərini tezliklə hərbləşdirmək üçün vəsait göndərilməsi, eləcə də hərbi donanmanın yenidən təşkilinin zəruriliyini bildirdi. Bakıda mart hadisələri zamanı I Dünya müharibəsi bölgələrindən geri qayıdan 8 min silahlı erməni daşnak birləşmələri yerləşdirildi. Daşnak partiyası cəbhədən fərarilik edən rus döyüşçülərindən çoxlu sayda silah və döyüş sursatı ələ keçirmişdir. Eləcə də Qafqaz döyüşlərindən və İrandan qayıdan rus əsgərlərinin müəyyən hissəsi başqa aldatma yolu ilə Bakıda saxlanılmışdı. Mart hadisələri zamanı erməni daşnakları 20 minlik silahlı qüvvə ilə yerləşmişdilər. Martın son günü Azərbaycan tarixində ən qanlı hadisələrdən biri kimi xalqın yaddaşına əbədi həkk olunub.1918-ci ilin martında baş verən bu qırğınlar nəticəsində on minlərlə dinc sakin daşnak-quldur dəstələrinin əli ilə amansızcasına qətlə yetirilib.






## 31 Mart soyqırımı zamanı on minlərlə azərbaycanlı daşnak-quldur dəstələri tərəfindən qətlə yetirilib

Azərbaycanda 1918-ci il 31 mart qırğını xalqımıza qarşı soyqırımı günü kimi qeyd olunur. Ümummilli Liderimiz Heydər Əliyev 26 mart 1988-ci il fərmanı ilə 1918-ci il hadisələrinə siyasi qiymət verilib və bu qırğınla bağlı elmi araşdırmaların aparılması tövsiyə edilib. Onilliklər ərzində erməni-daşnak millətçiləri və onlara havadar olan ideoloqları erməni millətinə qarşı qondarma genosid hadisələrini hər zaman yad edir. Əvəzində isə Qərbi Azərbaycan tarix boyu yaşamış əhalini təzyiqə məruz qoymaları və onlara qarşı bilərəkdən törədilən cinayətləri hər zaman ört-basdır edib və onu gizli saxlayıblar. XIX-XX əsrlər arasında çox hissəsi Qərbi Azərbaycan (indiki Ermənstan adlanan) yalnız İrəvan quberniyasının ərazisində 407.4 min nəfər əhali yaşayırdı ki, bunun da 250 min nəfərdən çoxu azərbaycanlılardan ibarət idi. 1918-ci ildə azərbaycanlıların sayı 575 min nəfər təşkil edirdi. Daşnak partiyası "böyük Ermənstan" yaradılması məqsədilə Azərbaycan və Gürcüstana qarşı müharibə aparmağa başlamışdı. XX əsrin əvvəllərindən başlayaraq ardıcıl şəkildə tarixi Qərbi Azərbaycan ərazisində ermənilər xarici ölkədən kütləvi şəkildə köçürülüb. Qafqazın cənubunda indiki Ermənistan dövlətinin yaradılması üçün Qərbi Azərbaycanın ən qədim ərazilərindən ata-baba yurdlarından qovulması, onların deportasiya prosesi məqsədyönlü şəkildə həyata keçirilib. 1905-1907-ci illərdə çar Rusiyasının hakim dairələri tərəfindən müdafiə olunan və hərəkətə gətirilən erməni millətçiləri azərbaycanlılara qarşı genişmiqyaslı qətllər və vəhşiliklər törətdilər. Yüzlərlə yaşayış məntəqələri dağıdıldı, minlərlə azərbaycanlı erməni terrorunun qurbanı oldu. Tarixi Azərbaycan torpaqları olan Zəngəzur, Göyçə, Sisyan və digər torpaqlar Sovet rəhbərliyinin əli ilə Ermənstana verildi. Dağlıq Qarabağa xaricdən köçürülmüş ermənilərə muxtariyyət verildi və gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin hazırlandı.1948-1953-cü illərdə ermənilər yenə də SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində azərbaycanlıların öz tarixi əraziləri olan Qərbi Azərbaycandan bütöv şəkildə deportasiyasına nail oldular. Bu gün həmin hadisələrdən 94 il keçir.

## Hər zaman terrorçu ermənilərin hərəkəti rusların işğalçılıq siyasəti ilə üst-üstə düşüb

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il bolşevik qüvvələri və XI Qırmızı Ordunun köməyi ilə hakimiyyətdən salınıb, ərazini işğal etdilər. Bu, 1915-ci il mart hadisələrində özünü göstərmişdir. Qanlı cinayətə V.İ.Leninin silahdaşı Şaumyan başçılıq edirdi. Azərbaycanda hökmranlığa can atan V.İ.Lenin daşnak qüvvələrin həyata keçirdiyi vəhşiliklərdən xəbərsiz deyildi. Bakıda baş verən mart qırğınlarını daha aydın başa düşmək üçün o dövrün ictimai-siyasi hadisələrinə nəzər salmaq lazımdır. 1917-ci il Oktyabr çevrilişindən sonra Rusiya imperiyasının tərkibində olan milli ucqarlarda da xaos başlandı. Bu işi Qafqazda ermənilər yerinə yetirdi. Həmin vaxt Şaumyan və Əmirovun (Əmiryan) rəhbərlik etdiyi erməni daşnak qrupu yerli rus bolşevikləri və digər anti-Azərbaycan qrupları ilə birləşərək hakimiyyətin milli qüvvələrinin əlinə keçməsinə nail olmağa çalışırdı. Millətçi daşnak Şaumyan bunu gizlətmir və açıqca bəyan edirdi ki, Bakını Azərbaycanın paytaxtına çevirmək olmaz. Onların bu hərəkəti rusların işğalçılıq siyasəti ilə həmişə üst-üstə düşür. 1918-ci ilin mart qırğınında bu amil özünü göstərdi. Erməni quldur birləşmələri qırğına lazımi səviyyədə hazırlıq işləri görürdülər. Onlar həmin dövrdə Qafqaz cəbhəsindən geri çəkilən əsgərlərdən çoxlu sayda hərbi sursat, texnika ələ keçirmişdilər.

Bununla kifayətlənməyən daşnak Şaumyan və onun işğalçı dəstəsi rus dəniz qüvvələrinin Xəzər donanmasındakı dənizçilərini də qırğına cəlb edə bilmişdi. 1918-ci ildə Azərbaycan milli ordusunun yaranması çətinliklə başa gəlirdi. Əvvəla azərbaycanlılardan ibarət milli hissə yox idi. Çünki I Dünya müharibəsində türk-müsəlman xalqları, o cümlədən, azərbaycanlılar alınmışdı. Bu dövrdə müsəlmanlardan ibarət yeganə silahlı dəstə Lənkəranda yerləşən "Dikaya diviziya"nın (Vəhşi diviziya) süvari polku idi ki, onlar az olmaqla bərabər həm də pis silahlanmışdılar. Daşnak qüvvələrindən ibarət xüsusi dəstələr 1918-ci ilin yanvarından etibarən Salyana və Lənkərana basqınlar edərək yolda müsəlman kəndlərini yandırır və talayırdılar. Astara topa tutularaq darmadağın edilib və kəndlər xarabaya çevrilirdi. Bakıda azərbaycanlılara qarşı soyqırımına başlamaq üçün bəhanə tapıldı. H.Z.Tağıyevin faciəli şəkildə həlak olmuş oğlu Məhəmmədin dəfn mərasimində iştirak edən "Dikaya diviziya"nın bir qrup əsgər və zabitinin "Evelina" gəmisində Lənkərana qayıtmaq istədikdə bolşeviklər tərəfindən tərksilah edilməsi əhalinin mübarizliyini son həddə çatdırdı. Əhali tələb edirdi ki, silahlar geri qaytarılsın. Bolşeviklər bu tələbin yerinə yetiriləcəyini vəd etdilər. Lakin bunun əksinə olaraq, martın 30-da başlanacaq döyüşlərə başçılıq etmək üçün Bakı Sovetinin İnqilabi Müdafiə Komitəsini yaratdılar. Komitəyə S.Şaumyan, A.Çaparidze, Q.Korqanov, İ,Suxartsev, S,Sarksyan, M.Yolçiyan daxil oldular. Lakin gəmidəki müsəlman əsgər və zabitlər ultimatumu rədd etdilər. Bu hadisələrin törədilməsi üçün ermənilər şantaj və təxribat metoduna əl atdılar. Bakıda 1918-ci il mart qırğınına başlamaq üçün erməni daşnakları şayiə yaydılar ki, H.Z.Tağıyevin Lənkəranda xidmət edərkən təsadüfən aldığı güllə nəticəsində həlak olan oğlunun dəfnində iştirak edən müsəlman əsgərləri güya Lənkəran ruslarına (malakanlara) hücum edib onları qıracaq.1918-ci il martın 30-u sübh çağı erməni-rus birləşmələri gəmi və təyyarələrdən şəhərin müsəlmanlar yaşayan hissələrini (İçərişəhər, Kubinka, Güllüdərə) bombardman etdilər. Silahlı erməni əsgərləri, eləcə də Bakıda yaşayan erməni ziyalıları da Sovet dəstələri tərəfindən döyüşlərə daxil oldular.

Erməni daşnak təxribatı və fitnələri ilə dənizdən rus hərbi gəmiləri əhalinin yaşadığı müsəlman məhəllələrini toplardan atəşə tutdular. Ermənilər rus dənizçilərini inandıra bilmişdilər ki, güya müsəlmanlar rusları qırıblar. Dənizçilər gördülər ki, bu ermənilərin təxribatıdır. Onlar atəşi dayandırdılar. Bakıda erməni və bolşevik dəstələri əhalini atəşə tutmaları nəticəsində azərbaycanlılar müqavimət göstərə bilmədilər. Silahlı hərbi daşnak birləşmələri evlərə soxularaq qadınları, körpələri və qocaları misli görünməmiş vəhşiliklə qətlə yetirirdilər. Erməni quldur dəstələri məhəllələrə soxularaq əhalini öldürür, onları xəncər və süngülərlə doğrayır, yandırılmış evlərə uşaqları atır, südəmər uşaqları süngülərin ucuna keçirirdilər. Hadisələrin ilk vaxtlarında torpağa 57 müsəlman meyiti basdırıldı.Onların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdi. Kimsəyə rəhm edilmirdi. Uşaqlara rəhm edilmədiyi kimi qocalara da aman yox idi. Məsələn, Əlizadə Hacı Əmirin evində 80 yaşlı anası və 60-70 yaşlı qadınları öldürülmüş, 25 yaşındakı gəlini isə diri-diri divara mismarlanmışdı.

Stalinin məktubundan: "Stepan, Alyoşa, başqa dostlara. Bütün Cənubun mühüm nöqtəsi olan Bakı artıq hər tərəfdən mühasirəyə alınıb. Sizə 2 tərəfdən - Daşkənddən və Şimaldan yardım gəlir".

Erməni vəhşilikləri yalnız bir yerdə dəhşətli şəkildə qətlə yetirilmiş-qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 37 müsəlman qadının meyiti tapılmışdı. Erməni dəstələrindən biri müsəlman evlərinə soxularaq 8 qadın və uşağı güllələmişdi. Başqa bir erməni quldur dəstəsi Fars küçəsində Bala Əhməd Muxtarovun evinə soxularaq 9 azərbaycanlı ziyalını küçəyə çıxararaq kilsə meydanında güllələmişdir. Bakıda xalqımıza aid binalar, milli rəmzlər, mədəniyyət ocaqları dağıdıldı və yandırıldı. Qadınların saçlarını bir-birinə bağlayaraq üryan (çılpaq) halda küçəyə qaçmağa sövq edir, digərlərini tüfəng qundaqları ilə vururdular. Üç gün ərzində Bakıda 17 minə qədər azərbaycanlı qətlə yetirildi. "Kaspi", "Açıq söz" qəzetlərinin redaksiyası eləcə də Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası yandırıldı. Bakıda bolşevik və erməni daşnakları tərəfindən qırğın 3 gün davam etdi. 1918-ci il mart qırğınları ərəfəsində Stalin Azərbaycana bir məktub göndərir. "Stepan, Alyoşaya, başqa dostlara. Bütün Cənubun mühüm nöqtəsi olan Bakı artıq hər tərəfdən mühasirəyə alınıb. Sizə 2 tərəfdən - Daşkənddən və Şimaldan yardım gəlir".

Ardı Səh. 12

Əvvəli Səh. 11

# Tarixin ən dəhşətli soyqırımı: 31 mart 1918-ci il

Azərbaycanın artıq dərəcədə "qayğısını çəkən" Lenin Stalinə belə bir göstəriş vermişdir: "Əksinqilabçıların əlində alət olmuş, miskin və hay-küyçü fitnəkarları hər yerdə amansızcasına əzmək lazımdır. Bakı məsələsində siz mütləq Şaumyanla əlaqə saxlamalısınız. Bu, ən mühüm cəhətdir. Beləliklə, hər kəsə amansız olun və bizə tez-tez məlumat verin".

Abbas Kazımzadənin başçılıq etdiyi heyət qırğının qarşısını almaq üçün Şaumyan, Fialetov və Çaparidze ilə danışıqlara başladı. Nümayəndə heyəti danışıqlardan dönərkən onların iki nəfəri qətlə yetirildi. Aprelin 1-də daşnaklarla "Atəşkəs müqaviləsi" bağlandı. Şərtə görə müsəlman qüvvələr hakimiyyəti Şaumyan Komitəsinə verdi. Məşədi Əzizbəyov Bakıya başçı təyin edilsə də, qorxu içərisində şəhəri tərk edən müsəlmanları sakitləşdirə bilmədi. Qafqaz cəbhəsindən türk qoşunları geri çəkilərkən Türkiyə erməniləri Qafqaz erməniləri ilə birləşdilər. Bir tərəfdən Andranikin, digər tərəfdən, Dro, Keri, Muradın quldur dəstələri hərəkət edirdilər. Məhz bu vaxt Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri ilə əlaqədar yazılmış məktub Gəncə komendantının əlinə keçdi. Bu məktubda Şaumyan və Avakyanın qaniçən olduqları açıq-aydın görünürdü. Mart hadisələrinin hansı səbəblərlə və məqsədlərlə baş verməsi bolşevik mətbuatında, siyasi liderlərin çıxışında eləcə də Şaumyanın 13 aprel BXKS-nin çağırılmış tarixi məruzəsində daha ətraflı şərh edilir. O, yazırdı ki, "biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə məhv edilmişdir". O, daşnaksütyun partiyasının köməkliyi ilə müsəlman "əksinqilabının" ləğv edilməsindən, Bakını "Azərbaycan xalqının paytaxtına çevirmək xülyasına düşən" müsavatçıların və digər müsəlman milli cəmiyyətlərinin dağılmasından sonra bolşeviklərin Bakıya tam sahib olduğunu bilirdi. Ermənilərin törətdikləri mart hadisələri yalnız Bakı ilə qutarmadı. Erməni bandaları 1918-ci ilin aprelindən hərəkətə gələrək Şamaxıda, Quba-Xaçmazda, Lənkəranda, Hacıqabul və Səlyanda cinayətlər və qırğınlar törətdilər. Daşnak Amiryan və Lalayanın başçılığı ilə Şamaxının bütün müsəlman əhalisi qılıncdan keçirildi və 7 min nəfərədək adam, o cümlədən, 1653 qadın və 965 uşaq qırdılar. Erməni quldurları bu ərazinin 40-a yaxın kəndini darmadağın etdilər. Ərazidə yaşayanların ucdantutma qırılması, hamilə qadınların qarınlarının yırtılması, qızların vəhşicəsinə təhqir olunması, diri-diri yandırılması və bütün bunlar daşnaklar arasında "bəzi haqsızlıqlar" adlandırıldı. Fövqəladə İstintaq Komissiyasının sənədlərində qeyd edilir ki, təkcə yanvarda Bakıdan 16 araba silah gətirilmişdi. Bakı Soveti və onun daşnak üzvləri martın ortalarında Şamaxıya 2 min erməni əsgəri, 60 araba silah göndərmişdilər. Sənəddə göstərilir: "çoxlu uşaq və qadınla gizlənmiş Axund Molla Cəfər öldürüldü. Erməni azğın əsgərləri məscidə soxularaq, Axundu tapıb onun gözlərini çıxartdılar, dilini, burnunu və qulaqlarını kəsdilər, üzünün və başının dərisini soydular və güllələdilər. Axundun evində və məsciddə olan bütün qadınları öldürdülər".

## Mart qırğınları zamanı erməni daşnak dəstələri Bakıda, Muğanda, Qubada 50 mindən çox adamı qətlə yetirmişlər

Erməni quldur dəstələrinin başçısı S.Şaumyan tərəfindən xüsusi səlahiyyət alan Amazasp Quba qəzasında 1918-ci ilin aprelində hücuma keçərək 122 müsəlman kəndini dağıtdırmış, yüzlərlə ləzgi əhalisi qılıncdan keçirilmişdir. Lənkəranda 2 minlik erməni ordusunun həyasızlığı o dərəcəyə çatmışdır ki, burada olan gürcülər silaha sarılaraq soyğunçuluğun qarşısını almışdı. Bakıda və qəzalarda xalqımıza qarşı düşünülmüş soyqırımı siyasətində erməni kilsəsi yaxından iştirak etmişdir. Ermənilər Bakı qırğınından doymayaraq Lənkəranda, Quba-Xaçmazda ən əsası isə Ağsu və Şamaxıda dəhşətli qətllər törətdilər. Yalnız Gəncədə Nəsib bəy Yusifbəylinin səyi nəticəsində 118 və 119 rus alayları tərk-silah olunaraq qovulduğu üçün, eləcə də Şəmkirdə yerləşən rus ordusundan ələ keçirilən silahlar Gəncə əhalisinə paylandığına görə, ermənilərin azərbaycanlılara silahlı basqın etməyə gücü çatmadı. Bakı əhalisi də təcavüzə məruz qalmaqda idi. Erməni daşnak dəstələri 1918-ci ilin mart-aprel aylarında Bakıda, Muğanda, Qubada 50 mindən çox adamı qətlə yetirib, on minlərlə adamı torpağından didərgin salıblar.

1918-ci ilin yaz payızında Zəngəzur qəzasında 115 kənd, yəni bütün azərbaycanlı kəndləri məhv edilib. 7729 nəfər azərbaycanlı, o cümlədən 3257 kişi, 2276 qadın və 2196 uşaq vəhşicəsinə öldürülüb. 1919-cu ilin sonunadək buradan 60 min nəfərdən çox adam qovulub. 1917-ci ilin dekabrından 1918-ci ili iyununadək erməni daşnak millətçilərinin qoşunları İrəvan quberniyasında 200 azərbaycanlı kəndini çapıb, talayıb və yandırıblar. 100 min nəfərədək azərbaycanlı İrəvan, Eçmiədzin (Üçmüədzin), Şərur qəzalarını tərk etməyə məcbur olub. 1919-cu ilin axırına qədər yalnız Təzə Bəyazid, Eçmiədzin və İrəvan qəzaları üzrə var yoxu talanan azərbaycanlıların sayı 200 yüz min nəfərə çatmışdı. Onu da qeyd etmək lazımdır ki, Mehriyə bitişik ərazinin Ermənistana verilməsi sayəsində Naxçıvan bölgəsi süni şəkildə Azərbaycandan ayrı salınıb. 1948-1951-ci illərdə Stalin və Mikoyanın səyləri nəticəsində 100 mindən çox azərbaycanlı Qərbi Azərbaycandan (indiki Ermənistan adlanan) qovulub və bir çoxları dözməyərək həlak olub. Erməni millətçiləri bütün bunlarla kifayətlənməyib 1988-ci ildə Qərbi Azərbaycan torpağında yaşayanlara qarşı yeni genosid törətdilər. Erməni vəhşiləri 250 mindən çox azərbaycanlını öz tarixi torpaqlarından qovub didərgin salıb, var yoxdan çıxarıblar. 1988-ci ilin üç günü ərzində noyabrın 27-dən 29-dək Quqarakda, Spitakda, Stepyanda 33 və ümümiyyətlə, 100 nəfərdən çox azərbaycanlı öldürülüb. Quqarak rayonunun Gözəldərə kəndində 21 azərbaycanlı, o cümlədən 6 qadın və 3 uşaq öldürülüb. 1918-ci il mart faciələri nəticəsində Şamaxı qəzasının 58 kəndi dağıdılıb, Quba qəzasının 122 kəndi, Qarabağın dağlıq hissəsində 155-dən çox, Zəngəzur qəzasında 115, İrəvan quberniyasında 211, Qars vilayətində 92 kənd erməni vandalları tərəfindən yandırılıb.

**İ.ƏLİYEV**

# 31 MART FACİƏSİ - İNSANLIĞA QARŞI SOYQIRIM CİNAYƏTİDİR

1918-ci il 31 Mart - erməni daşnakların bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımından 104 il ötür. Hər il 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Bu münasibətlə dünyanın müxtəlif ölkələrində tədbirlər, anım mərasimləri, konfranslar keçirilir. Bu tədbirlərdə biz gənclər daha çox fəallıq nümayiş etdiririk. Çünki belə bir söz var: "Öz tarixini bilməyən gənc vətənpərvər ola bilməz". Bəli, biz gəncləri vətənpərvər edən bizim tariximizdir. Tariximizə yazılan şərəfli səhifələri və soyqırımı günlərini hər bir Azərbaycan gənci dərindən bilməli, min bir əziyyətlə qazınılan Azərbaycanın müstəqilliyini və bu müstəqilliyin əldə olunması ilə bağlı hadisələrdən nəticə çıxarmağı bacarmalıdır. Çünki Soyqırım bəşəriyyətin heç sağalmayan yarasıdır.




*Fuad Heydər, YAP Səbail rayon təşkilatının təlimatçısı*

Millətimizin, ölkəmizin yaddaşına növbəti qara, qanlı hərflərlə yazılan 31 Mart soyqırımı da mənfur erməni birləşmələrinin öz niyyətlərini - azərbaycanlıları yer üzündən silmə niyyətlərinin bariz nümunəsidir. 1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın qətli ilə nəticələnib. Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə edib. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulub, ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırıblar.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər.

Bax, bu tarixi hadisələr heç vəxt unudulmamalıdır və unudulmur da! Və bu hadisələrdə nə qədər olursa-olsun, millətimiz heç vaxt yıxılmadı, xalq olaraq hər zaman bir olduq, birlikdə güclü olduq. Bu sahədə də hər bir gəncin başlıca vəzifəsi tariximizi yaşatmaq, haqq səsimizi dünyaya çatdırmaqdır. Bizlər aldığımız bu öhdəliyi, layiqincə yerinə yetirsək, o zaman bütün düşmənlərə sinə gərər, gələcək nəsillərə də bu tarixi ötürər və bir daha xalqımızın başına bu cür faciələrin gəlməsinə əngəl olarıq. Xalqımıza qarşı istər Xocalı soyqırımı, istər 31 Mart soyqırımı, istərsə də 20 Yanvar faicələri nəinki azərbaycanlılara bütövlükdə bütün bəşəriyyətə qarşı törədilmiş soyqırımıdır. Biz Azərbaycan gəncləri olaraq erməni vandallarının bu antiinsani əməllərini heç vaxt unutmamalı, soyqırımı qurbanlarının xatirəsini daim uca tutmalıyıq. Bu, bizim bir növ vətəndaşlıq borcumuzdur. İllər keçsə də, bu hadisələr heç bir insanın yaddaşından silinmir və silinməyəcək. Əksinə, bizə daim keçmişimizi, kimliyimizi xatırladır. Çünki bu, Azərbaycanın qanla yazılmış tarixidir və bunu hər bir gənc dünyaya çatdırmalıdır.

Qeyd edək ki, 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması barədə qərar qəbul edib. Lakin Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, 1998-ci il martın 26-da ulu öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalayıb. Fərmanda 1918-ci ildə baş verən soyqırımı hadisəsinə siyasi-hüquqi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Prezident İlham Əliyev "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi" haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilib.

Bu gün hər bir gənc xalqımıza qarşı edilən bu soyqırımları öyrəndikcə bizə dostumuzu, düşmənimizi yaxşı tanımağı təlqin edir və bundan sonra torpaqlarımızın bir qarışını belə verməmək üçün əlimizdən gələni etməliyik. Artıq bütün şəhidlərimizin ruhu şaddır. Çünki Müdrik Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları 30 ilə yaxın düşmən işğalı altında qalan torpaqlarımız azad edildi. Bu böyük qələbəni xalqımıza görkəmli dövlət xadimi, müdrik Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, onun rəhbərlik etdiyi şanlı ordumuz bəxş etdi. Neofaşist ölkə olan Ermənistan, onun vandal ordusu igid əsgərlərimizin zərbələri qarşısında diz çökdü. Qələbəyə aparan uzun yol 44 gün davam edən İkinci Qarabağ müharibəsi ilə başa çatdı. İgid hərbçilərimizin, şəhidlərimizin qəhrəmanlığı sayəsində düşmən döyüş meydanında məhv edildi, məğlubiyyətini etiraf etdi. "Ermənilərin məğlubedilməzliyi" barədə yalanlar ifşa edildi.

Ali Baş Komandanımız bütün dünyaya sübut etdi ki, məhz erməni kimi, insanlıq xüsusiyyətlərindən uzaq bir düşmən tərəfindən uzun müddət işğal altında qalan torpaqlarımızın azad edilməsinin yeganə yolu müharibədir. 44 günlük bu Vətən müharibəsi və qazanılmış qələbə Azərbaycan tarixinin ən parlaq səhifələri kimi milli yaddaşımızda əbədi olaraq qalacaqdır.

Prezident İlham Əliyev: "Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik".

Beləliklə, 31 Mart soyqırımları və ondan sonra da azərbaycanlılara qarşı törədilən cinayətlərin qisası döyüş meydanında alındı. Bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan 31 Mart soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır və torpaqlarımızın düşmən işğalından azad edilməsi ilə soyqırımı qubanlarının da ruhu şad oldu.

TƏRS BAXIŞ+ÖZƏL

# Qarabağda gərginlik: strateji yüksəkliklərdən düşmənin başına od ələnəcək!



**RSK-nın etinasızlığı və biganəliyi Azərbaycan tərəfinin erməni qanunsuz silahlı birləşmələrinin kökündən məhv edilməsi hüququnu önə çıxarır!**

***Artıq dəfələrlə sübuta yetirilib ki, Azərbaycanın Qarabağ regionundakı bəlli ərazilərdə qalan qanunsuz erməni hərbi birləşmələri bu ərazilərdən çıxmamaq üçün hər vəchlə müxtəlif təxribatçı əməllərə əl atırlar.***

Üçtərəfli bəyanatın tələb və şərtlərini bilavasitə pozmağa yönəlmiş, eləcə də regionda sülhün bərqərar olmasına, habelə suveren ərazilərimizin təhlükəsizliyinə qarşı ciddi maneələr törədən bu kimi hallar söz yox ki, Azərbaycanın Silahlı Qüvvələri, eləcə də müvafiq güc strukturlarımız tərəfindən diqqətdə saxlanılmaqdadır. Və maraqlıdır ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatda kapitulyasiyasına imza atan Ermənistan hələ də Rusiya sülhməramlı kontingentinin (RSK) yaratdığı imkanlardan istifadə edərək Laçın dəhlizi vasitəsi ilə erməni silahlılarını ərazilərimizə göndərir, üstəlik, bu torpaqlarımızda istehkamlar, dayaq məntəqələri qurulur, səngərlər qazılır, silahlanma prosesi aparılır.

### Artıq Azərbaycan cəmiyyəti də erməni tərəfinin RSK-nın etinasızlığı üzündən, yaxud bilərəkdən yaratdığı situasiyadan yararlanan düşmənin bu addımlarından hiddətlənir

Azərbaycanın hərbi rəhbərliyinin etdiyi çoxsaylı xəbərdarlıqlarına rəğmən, sözügedən əməllərinə son qoymayan erməni tərəfi rahat şəkildə, necə deyərlər, əllərini-qollarını sallaya-sallaya silahlanmağa davam edirlər. Bu kimi olaylar isə Qarabağda növbəti eskalasiyanın yaranması ehtimallarını kifayət qədər artırmaqdadır. Əbəs deyil ki, artıq Azərbaycan cəmiyyəti də erməni tərəfinin RSK-nın etinasızlığı üzündən, yaxud bilərəkdən yaratdığı situasiyadan yararlanan düşmənin bu addımlarından hiddətlənir, bu dəfə isə onların tam məhv edilməsi gününün elə də uzaqda olmadığı qənaətinə gəlirlər. Təbii ki, belə davam edə bilməz və çox yəqin, Azərbaycanın dövlət rəhbərliyi, Silahlı Qüvvələri baş verən hər kirli təxribat planlarını yalnız qeydə almır, əksinə, bütün bunlara qarşı gözlənilən güclü, sarsıdıcı zərbəni endirməyə hazırlaşır.






### Söz yox ki, bu məsələdə onlara havadarlıq edən, cürətləndirən əsas tərəf məhz Ermənistandır

O da əbəs deyil ki, Azərbaycanın Şanlı Silahlı Qüvvələri Ağdamın kəndlərini təhlükə altında qoyan, bu regionumuzda aparılan tikinti-quruculuq, bərpa işlərinə maneələr və təhlükələr yaradan halların aradan qaldırılması üçün lazımi tədbirləri həyata keçirib və məlumdur ki, hərbçilərimiz Fərrux istiqamətindəki yüksəkliklərə, eləcə də Daşbaşı strateji yüksəkliyinə sahibləniblər, qanunsuz erməni silahlı birləşmələrini oradan rədd ediblər.

Ancaq göründüyü kimi, aldıqları dərslərdən nəticə çıxarmaq istəməyən həyasız düşmən və onların tezliklə azad edəcəyimiz Xankəndi şəhərimizdə oturan baş quldurları "artsaxın" heç vaxt Azərbaycanın tərkibinə geri dönməyəcəyi ilə bağlı sərsəm bəyanatlar səsləndirir, bu da azmış kimi, indi də hansısa "xüsusi təyinatlılar dəstəsi" hazırladıqlarını iddia edirlər. Söz yox ki, bu məsələdə onlara havadarlıq edən, cürətləndirən əsas tərəf məhz Ermənistandır. Ancaq bununla yanaşı, RSK-nın ümumiyyətlə, etinasız davranması özü-özülüyündə suallar yaradır, həm də bu suallara cavabın necə olacağı proqnozunu ortaya qoyur.

### Xocalının Pirlər kəndi - RSK-nın gözü qarşısında silahlanan düşmən!

Məsələn, artıq bir neçə gündür ki, Xocalı rayonunun Pirlər kəndi ərazisində qanunsuz erməni silahlılarının fəallıqları müşahidə olunmaqdadır. Artıq həmin faktı təsdiq edən videogörüntülər də mövcuddur və həmin görüntülərdən aydın olur ki, Xankəndidən və RSK-nın müvəqqəti yerləşdiyi digər ərazilərdən bu istiqamətə doğru insanlar gətirilir, onlara silah və hərbi geyimlər, təchizatlar paylanılır. Və ən maraqlısı budur ki, həmin proses RSK-nın 200 metrliyində baş verir, yəni onlar bu prosesi izləyirlər və qarşısını qətiyyən almırlar.

Üstəlik, RSK qanunsuzluqların qarşısını alması yerinə səsgücləndiricilər vasitəsi ilə sözün açığı, psixoloji təsirlərdən istifadə edərək rus mahnılarını səsləndirir, sanki "meydan oxuyurlar". Amma bunun da bir sonunun olacağı gün uzaqda deyil, çox yaxındadır və buna şübhə belə yoxdur!

Məhz həmin prosesdən də yaranan sualın cavabı məlum olmağa başlayır: erməni tərəfinin mövcud fəaliyyəti yeni eskalasiyanın yaradılması, təxribatların törədilməsi ehtimallarını reallığa çevirməyə başlayır...

***Rövşən RƏSULOV***

***P.S. RSK-nın etinasızlığı və biganəliyi Azərbaycan tərəfinin erməni qanunsuz silahlı birləşmələrinin kökündən məhv edilməsi hüququnu önə çıxarır. Bunu isə həyata keçirmək Azərbaycanın qəhrəman Silahlı Qüvvələri tərəfindən əsla çətin deyil - belə ki, bütün yüksəkliklər bizdədir və bu dəfə başlayacaq antiterror əməliyyatlarının qarşısını kimsə ala bilməyəcək, çünki strateji yüksəkliklərdən düşmənin başına, sözün əsl mənasında, od ələnəcək!***

## Qarabağda aşkarlanan kütləvi məzarlıqlar soyqırımın tərkib hissəsidir

**"1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz torpaqlarından qovublar. Ermənilər 104 il əvvəl törətdikləri bu cinayətləri son 30 illikdə də eyni xislətlə davam etdirdilər. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində-Xocalının Fərrux kəndində aşkarlanan kütləvi məzarlıqlar Ermənistanın hərbi cinayətlərinin, Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin növbəti dəfə sübutudur". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.**



Onun sözlərinə görə, təsadüfi deyil ki, Prezident İlham Əliyev kütləvi məzarlıqlar mövzusuna xüsusi önəm verir: "Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Fransa dövlət başçısı Emmanuel Makronla görüşdə də bu məsələ xüsusi qaldırılıb. Dövlət başçımız bəyan edib ki, Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir. Biz erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, lakin hələ cavab yoxdur: "Mən bilmirəm niyə. Yəqin onlar başa düşürlər ki, orada, sadəcə, hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağdadır, bizim işğaldan azad etdiyimiz ərazilərdədir".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, ümumiyyətlə, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil edib: "Bu hadisələrin yalnız birinə - 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilib. Ulu Öndər Heydər Əliyevin mart soyqırımı ilə bağlı müvafiq fərmanında da qeyd olunduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması istiqamətində fundamental işlər aparılıb. Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir.

Bu gün eyni zamanda Xocavəndin Edilli kəndində, Kəlbəcərdə-Başlıbeldə, Xocalıda-Fərrux kəndi ətrafındakı yüksəkliklərdə ayrı-ayrılıqda 3 yerdə aparılmış qazıntılar zamanı I Qarabağ müharibəsi zamanı qətlə yetirilmiş azərbaycanlıların yeni qalıqları aşkar olunub. Bu faktlar erməni faşizminin ifşasında və həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında vacib əhəmiyyət kəsb edir. Ermənistanın bu cinayətlərə görə beynəlxalq miqyasda məsuliyyətə cəlb olunması istiqamətində atılan addımlar daha da intensivləşməlidir".

***Arzu Qurbanzadə***

# "Ermənistanda bəlli siyasi dairələr Putin iqtidarından narazıdırlar"

"Rusiyanın Ukrayna ilə hərbi qarşıdurması və bu zaman Qərbin Zelenski iqtidarının yanında yer alması ilə bir çox nüfuzlu siyasətçilər, siyasi şərhçi və tədqiqat mərkəzləri bu qarşıdurmaya görə Rusiyanın MDB məkanında, o cümlədən Cənubi Qafqazda təsir imkanlarının zəifləyə biləcəyi ilə bağlı fikirlər irəli sürürlər". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, Ukraynadakı məlum hadisələr Rusiyaya böyük maliyyə məsrəfləri, hərbi, təhlükəsizlik resurslarının müəyyən hissəsinin xərclənməsi diplomatik, kəşfiyyat fəaliyyətinin əhəmiyyətli dərəcədə bu istiqamətə yönəltməsi hesabına başa gəlir: "Azərbaycanın 44 günlük Vətən müharibəsilə Cənubi Qafqazda Qərbin maraqlarına cavab verməyən yeni geosiyasi reallıqların çıxdaş edilməsi, dəyişdirilməsi cəhdləri mümkündür. Rusiyanın moderatorluğu ilə imzalanmış "Moskva müqaviləsi"nin şərtlərinin Ermənistanı əsla qane etməməsi bəllidir, hərçənd məhz bu müqavilə və Rusiyanın son və həlledici anda münaqişəyə müdaxiləsi rəsmi İrəvan iflas olmaq, öz dövlətçiliyini itirmək təhlükəsindən qurtarmışdır. Lakin Ermənistanda bəlli siyasi dairələr bu gün də müəyyən mənada Putin iqtidarından narazıdırlar, onlar belə düşünürlər ki, Rusiya KTMT üzrə müttəfiqi olan Ermənistanı tək buraxmasaydı, ona hərbi, siyasi və maliyyə dəstəyi verməkdə davam etsəydi, vəziyyət başqa cur də ola bilərdi. Putinin Paşinyandan Moskva razılaşmalarının şərtlərinin nəhayət ki, yerinə yetirilməsi ilə bağlı təklifləri şübhəsiz ki, Ermənistanı qane etmir. Digər tərəfdən bölgə dövlətlərindən Türkiyə və İranın 3+3 formatında əməkdaşlığa hazır olmaları və bununla bağlı Ermənistana ünvanlanmış tələb və təklifləri Paşinyan iqtidarını pis vəziyyətdə qoyur. Türkiyənin məlum şərtlər müqabilində Ermənistanla münasibətləri normal axara salmağa hazır olması ilə bağlı təklifləri də Ermənistandan öz həqiqi simasını gizlətmək, bölgədə sülh və dayanıqlı sabitliyə təhlükənin məhz onun tərəfindən gəlməməsi amilini qabartmaq üçün yollar aramağa vadar edir".



Politoloq onu da bildirib ki, son vaxtlar Qarabağın enerji, qaz təminatı ilə bağlı məsələlərdə yaşanan hadisələrlə bağlı Azərbaycan hakimiyyətinə ünvanlanmış xahiş və təklifləri, Azərbaycan vətəndaşlığını qəbul etməyə hazır olmaları ilə bağlı müraciətləri şübhəsiz ki, Ermənistan hakimiyyətini əməlli başlı narahat etməyə başlayıb: "Hadisələrin bu istiqamətdə davam etməsi Ermənistan millətçilərinin illərdən bəri Qarabağla bağlı dünya ictimaiyyətinə sıramaq istədikləri mif və əsatirlərin yox olmasına səbəb ola bilər. Azərbaycan Prezidenti İlham Əliyevin "Şərqi Zəngəzur" dəhlizinin açıla biləcəyi ilə bağlı verdiyi bəyanatlar, onun həmişə olduğu kimi nümayiş etdirdiyi siyasi iradə və qətiyyət də rəsmi İrəvanı yetərincə düşünməyə məcbur edir. Azərbaycan sülh danışıqlarına qədər bölgədə nəqliyyat kommunikasiya dəhlizlərinin açılması, sərhədlərin demarkasiya olunması, nəhayət dövlətimizin ərazisindən Ermənistana məxsus silahlı birləşmələrin çıxarılması tələbini qəti və birmənalı qoyur. Məhz bu amillər bütövlükdə götürüldükdə Ermənistanı sülh danışıqlarına qısa zamanda başlamağa sövq edir. Lakin erməni tərəfi danışıqları ATƏT Minsk Qrupunun vasitəçiliyi ilə aparmaq niyyətində olduğunu bildirir, bu zaman Ermənistan Qərbdəki havadarlarının köməyinə ümid edir. Zira erməni tərəfi bölgədə yeni geosiyasi reallıqların ABŞ və Fransanı müəyyən mənada təmin etməməsinin mahiyyətinə varır. Digər tərəfdən Rusiya və Azərbaycan arasında müttəfiqlik barədə müqavilənin bağlanmasını da Ermənistanı Rusiyaya tərəf ehtiyatla baxmağa sövq edir, hərçənd, rəsmi Moskvanın Qarabağ məsələsinə münasibəti fərqlidir. MDB-dəki digər münaqişələrlə müqayisədə, Rusiyanın siyasi elitasında, Dövlət Dumasında, hərbi sənaye kompleksində Ermənistanla münasibətlərə əvvəlki dövrlərdə olan kimi baxanlar da var. Bölgədə Rusiya sülhməramlılarının hərəkətlərində müşahidə olunan ikili standartlar, ayrı-ayrı siyasətçilərin rəsmi Bakını guya ki, Moskva razılaşmalarının şərtlərinə əməl etməməkdə günahlandırmaları da Ermənistanın Rusiyadakı bəlli dairələrlə işgüzar münasibətlərindən irəli gəlir".

***Gülyana***

---

# Ukraynadakı müharibə erməni diasporunu parçalayıb

*Yaranmış vəziyyət vaxtilə güclü hesab edilən erməni birliyinin zəifləməsi və prosesini sürətləndirir*

Ukraynada baş verən hadisələr bir vaxtlar möhkəm birliyə sahib olduğu iddia edilən erməniçiliyi demək olar ki, tam şəkildə parçalayıb. Belə ki, Rusiyadakı erməni diasporunun bir çox təsiredici şəxsləri Kremlin Ukraynada başlatdığı hərbi əməliyyatlara birmənalı dəstək nümayiş etdirdilər. Lakin ABŞ-dakı erməni diaspor dairələri Rusiyadakı ermənilərdən fərqli olaraq səs-küylü bəyanatlar verməkdən çəkindilər, sözügedən geosiyasi qarşıdurma fonunda kölgədə qalmağı üstün tutdular. Düzdür, Rusiya-ABŞ erməni diasporları arasında qarşıdurma müşahidə edilməsə də, ziddiyyətlərin olmamasını da demək olmaz.



erməni strukturları kollegial şəkildə fəaliyyət göstərsələr də, Rusiyadakı fəaliyyətləri "materializm" və şəxsi avtoritetlik prinsiplərinə söykənməkdədir. Məhz bu baxımdan demək olar ki, Rusiyadakı diasporun Kremlin Ukrayanaya müdaxiləsini dəstəkləməsi Moskvanın yüksək siyasi elitasını özlərinə tərəf cəlb etməyə köklənib. Ancaq buna baxmayaraq, Moskvadakı erməni diaspor nümayəndələrinin hətta ruslardan da çox və artıq fikir bildirmələri ümimilikdə dünyanın geosiyası məkanındakı erməni diasporunun fikirlərini üstələyə bilmir.

## ABŞ və Rusiya erməni təşkilatlarının fərqi nədədir?

Lakin ortadakı fərqlər də bir sıra məsələləri önə çıxarır. Misal üçün, Rusiyadakı erməni diasporu kiçik regional icmalarda, eləcə də biznes dairələrində köklü biznes institutlarına malik olmasa da, ABŞ-dakı diaspora həmin sahədə kifayət qədər geniş imkanlara sahibdirlər. Amerikanın müasir diaspor strukturları ictimai təşkilatlar kimi tam fəaliyyət göstərə bilirlər, ancaq Rusiyada sadəcə fərdi biznesmenlər sayəsində müəyyən işlər aparılmaqdadır.

Daha bir fərq - Amerikanın milli erməni komitəsi (AMEK), Amerikanin erməni assambleyası (AEA) və daha 200-ə qədər müxtəlif təşkilatlar ABŞ ermənilərinə aid təşkilatlara kuratorluq edirlər.

Rusiyada isə demək olar ki, bir təşkilatla - Rusiya erməniləri ittifaqı (REİ) ilə kifayətləniblər və bu təşkilat erməni biznesmeni Ara Abramyanın şəxsi təşəbbüsü ilə yaradılıb. Həmçinin, okeanın o tayındakı

## Qütbləşmə və qarşılıqlı ittihamlar

Hələ ki, biz Moskvadakı nüfuzlu erməni diaspor nümayəndələrinin ABŞ və Qərb ölkələrindəki ermənilər tərəfindən tənqidlərə məruz qadıqlarını müşahidə etməkdəyik. Xüsusilə, ABŞ-dan, ABŞ-dan, Fransadan ittihamlar səsləndirilir, hətta onlar həmin mövqelərinə görə Ermənistana xəyanətlərdə ittiham edilirlər.

Nəticədə ABŞ və Rusiya erməni diasporunun qütbləşmə prosesi gedir. Üstəlik, Avropada və ABŞ-da mövcud olan çoxsaylı erməni filialları Rusiyadakı ermənilərə qarşı çıxırlar və nəzərə alınsa ki, təkcə AMEK-in iki mərkəzi ofisi və onların da 45 şöbələri fəaliyyət göstərir bu zaman ABŞ ermənilərinin Rusiya ermənilərini üstələdiyini deyə bilərik. Belə bir yaranmış vəziyyət isə söz yox ki, vaxtilə güclü hesab edilən erməni diasporunun zəifləməsi və parçalanması prosesini sürətləndirir.

***Rövşən RƏSULOV***

---



İLHAM

# Hambal olmaq üçün xarici dil bilmək vacibdirmi?

Hərdən Türkiyə istehsalı olan tarixi teleserialları seyr edirəm. Ədalət naminə demək olar ki, əla filmlərdir, alqışlanmağa layiqdir. Amma məni filmlərdə insanların vaxtlarının əsas hissəsini çadırlarında keçirmələri çox təəccübləndirir. Düşünürəm ki, görən o dövrün uşaqları, yeniyetmə və gəncləri cadırlarında saatlarla necə oturublar? Təbii ki, onlar da yaşıdları ilə çöldə-bayırda oynayıblar, bəzən qurşaq tutublar, at çapıb, qılınc yarışları keçiriblər. Lakin əsas vaxtlarını cansıxıcı görünən cadırlarında oturmaqla keçiriblər... Sözümün əmmaqulusu ondan ibarətdir ki, bugünkü müasir zehniyyət o dövrün qaydalarına heç uyğunlaşa bilməzdi. Yəni indiki, uşaqları "Sehirli xalat" filmində olduğu kimi keçmişə aparıb, cadırlarda yaşamağa məcbur etsələr, tam qətiyyətlə demək olar ki, həmin o uşaq və ya gənc üsyan edər, ayaqlarını bərk-bərk yerə döyüb, zarıltılı səslə "məni Facebook-un, Whatcapp-ın, Twittere-in meydan suladığı dövrə qaytarın" deyərlər. Bu baxımdan, cəmiyyətlərdə baş verən hadisələrə əsasən gəldiyim qənaət ondan ibarətdir ki, basdırılmış mina təsiri bağışlayan sosial şəbəkələr bir bəladır ki, keçib milyardlarla insanların boğazına.Nə qədər əcaib-qəraib, əlləm-qəlləm işlər və əməllər varsa hamısını sosial şəbəkələrdə görmək olar. Bir də görürsən, evində yemək bişirən qız tullana-tullana hərəkətlərini sosial şəbəkələrə yükləməklə, dostlarından like tələb edir. Restoranda, kafedə və ya küçədə səviyyəsizlik edib, min hoqqadan çıxanlar da utancverici əməllərini çəkib Facebook-a, Whatcapp-a, Twittere yükləyib paylaşırlar. Sosial şəbəkələr vasitəsi ilə texniki avadanlıqlarını, ev əşyalarını, hətta böyrəyini, ciyərini, eləcə də başqa-başqa şeylərini satışa çıxaranlar da olur. Olsun, özləri bilər. Məni narahat və təəccübləndirən məsələlərdən biri də, odur ki, sosial şəbəkələrdə elə şəxslər olur ki, sadə, təmiz, vicdanlı insanların heysiyyatı ilə oynayırlar. Deyək ki, sosial şəbəkələr vasitəsi ilə elan verilir ki, filan idarə, müəssisə, təşkilat, restoran, kafe, otel və digər yerlər işçi tələb edir. Yayılan elanda telefon nömrəsi və ünvan göstərilir. Olur ki, şirkət adı ilə çıxış edən "İşə düzəltmə" bürosunun rəhbəri iş axtarışı ilə onun qəbuluna gələndən ilk öncə 15-20 manat pul tələb edir. Biçarə iş axtaran bəlkə də ailəsinin sonuncu maliyyə vəsaiti olan 15-20 AZN-i 550-600 AZN aylıq maaş ala biləcəyi iştəhasına görə piyli məxluqa ödəyir. Bundan sonra işin düzəlməyəcəyi şübhəsizdir, ödədiyin pulu da geri almaq mümkünsüzdür. Bir neçə dəfə "İşə düzəltmə" bürosuna ayaq döyəcəksən, hər dəfə də "bir qədər də dözün, filan idarədə, müəssisədə və ya kafedə iş yeri boşalır, sizi ora işə götürəcəklər" deyib, səni başlarından edəcəklər. Nəhayət, get-gəldən yorulacaqsan "cəhənnəm olsunlar, o pul da haramları olsun" deyib, başqa iş yeri axtarmağa gedəcəksən.

Əndirəbadi məqamlardan biri də odur ki, iş elanı verən kafe, restoran, idarə və müəssisə rəhbərləri, əsasən, xanımlar arasında seçim apararkən, onların boyuna-buxununa, yaşına, eləcə də xarici dil bilməsinə önəm verirlər. Xanımların yaşları da 30-u keçməməlidir. Dövlət vəzifələrinə təyinatda, beynəlxalq miqyaslı şirkətlərdə işə düzəlmək üçün ali təhsilli oğlan və qızların xarici dil bilməsi, eləcə də kompyuterdə iş bacarmalarına önəm verilməsi başa düşüləndir. Ancaq kafedə, restoranda qab yuyandan, təmizlik işləri aparandan, xarici şirkətlərin tikinti obyektlərində işləmək istəyən fəhlədən, fabrik və zavodlarda çalışmaq arzusunda olanlardan ən azı bir xarici dil bilməsi tələbinin qoyulması anlaşılan deyil. Ən azı ona görə ki, biz Azərbaycanda yaşayırıq və işçi ilə işə götürən arasında müqavilələr Azərbaycan qanunlarına və Azərbaycan dilində aparılmalıdr. Fəhlədən, qabyuyandan, təmizlik işi aparmaq istəyənlərdən xarici dil bilməsi tələbinin irəli sürülməsi kobud qanun pozuntusudur. Lakin görünən odur ki, bəzi vəzifə sahiblərinin və iş adamlarının öz qanunları və qaydaları var.

İdarə, müəssisə, restoran, otel qapısı döyən, lakin xarici dil bilmədkləri üçün problemlərlə üzləşən insanlardan bəziləri ilə söhbətlərimiz zamanı deyirlər ki, biz vəzifə-filan istəmirik, istəyimiz hambalçılıqla evimizə bir parça çörək aparmaqdır, bunun üçün xarici dil bilmək tələbinin qoyulmasına nə ehtiyac var. Cəmilə Əzizova adlı hicablı xanım deyir ki, "Tarqovu" deyilən ərazidə bir neçə mağazanın önündə işçi tələb olunması barədə elanlara rast gəlib: "Səmimi şəkildə deyirəm 3 mağazada oldum, dedim ki, təmizləyici işləmək istəyirəm, müdiriyyət "neçə yaşın var" sualını edincə, "35" dedim, üzünü turşudub, "xarici dillərdən bilirsənmi" sual dolu nəzərlərlə üzümə baxdıqda, "xeyr" cavabını verdim. "Yox, bizə xarici dil bilən işçilər lazımdır" deyərək, mənimlə söhbətlərini yekunlaşdırdılar. Mənzurə Xəlilova adlı xanım isə deyir ki, utancverici olsa da, işləmək və ailəsinə maddi yardım dəstəyi göstərmək istəyi ilə aylıq maaş qarşılığında otellərə gedib, qabyuyan və ya hamamları, tualetləri, otaqları təmizləmək işi axtardığını bildirib: "5 oteldə oldum, məni başdan ayağa qədər süzdülər. Boy-buxunumu nəzərdən keçirdilər, anladım ki, onların tələblərinə uyğun deyiləm. Başlarından etmək üçün ingilis, alman dilini bilib-bilmədiyimi soruşdular. "Yox" cavabını söyləyincə, "telefon nömrənizi katibəyə verin, lazım olsa, sizinlə əlaqə saxlanılacaq" deyərək, məni yola saldılar.

Mahir Abbasov və Cavid Qasımov adlı şəxslər isə deyirlər ki, tanınmış şirkətlərə gedib, fəhlə işləmək arzusunda olduqlarını bildiriblər. Lakin xarici dil bilmədikləri üçün onları işə götürməyiblər.

Bir sözlə, görünən ondan ibarətdir ki, qudurğan, harın iş adamları və vəzifə mənsubları özlərini hakimi-mütləq olaraq aparırlar. Ancaq unudurlar ki, ən böyük hakim Allahdır. Etdiyiniz iyrənc əməllərə, törətdiyiniz bədxah işlərə görə, bu fani dünyada olmasa da, haqq dünyasında cəzanızı alacaqsınız...

# Sosial mənzillərin bir neçə saniyədə onlayn satışı müzakirələrə səbəb olub

**Ekspert: MİDA hər bir iddiaçının satışla bağlı real vəziyyətini əks etdirən log faylları dərc etməli, botlarla bağlı məsələyə aydınlıq gətirməli və bütün digər məlumatları açıqlamalıdır**



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) dünən baş tutan onlayn mənzil satışının statistikasını açıqlayıb. 442 sosial mənzil çox qısa müddətdə internet üzərindən satılıb, bəziləri cəmi bir neçə saniyəyə. Bu da satış sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. İstifadəçilər prosesin çox qısa müddətə başa çatdığını və bu əməliyyatın bir neçə dəqiqədə praktiki olaraq mümkün olmadığını bildiriblər.

### ”90%-i proqramçılara müraciət etmişdi, amma ala bilmədilər”

Satışa çıxarılan bütün mənzillərin bir neçə saniyə ərzində satıldığının elan olunması sosial mənzil almaq istəyənləri təəssüfləndirib. Mediada və sosial şəbəkələrdə qeyd olunur ki, sosial mənzil almaq istəyənlərin əksəriyyəti peşəkar proqramçılara müraciət etmişdi, lakin onların çox böyük hissəsi texniki və praktiki cəhətdən bunu çatdıra bilməyiblər. Belə ki, çox qısa müddətdə bütün mənzillərin satıldığı məlum olub. Bir çox mənzillərin satışı isə cəmi bir neçə saniyədə baş tutub.

Sosial platforma istifadəçilərindən Bəxtiyar Firuzənin statusu: ”...Ev almaq istəyən şəxslərin hardasa 90%-i proqramçılara müraciət etmişdi. Amma ala bilmədilər. Çünki 500 ev 4-5 saniyəyə satıldı. Onlayn formada bir insanın fiziki olaraq bunu bacarması mümkündürmü? Keçən dəfə satış başlayan kimi guya ki, saytları çökdü. Açılanda bütün mənzillər satılmışdı.

İddia olunur ki, maklerlər bu işi biznesə çeviriblər, xüsusi yollarla evləri udub 10-15 min bahasına satırlar Ortada bu qədər anormallıq, şübhə, iddia varkən, niyə düz-əməlli araşdırma aparılmır? Onlayn yolla satış alınmırsa, niyə alternativ variant tapılmır?”.

### MİDA botlara qarşı aldadıcı demo versiya tətbiq edib?

Azərbaycan İnternet Forumunun rəhbəri, informasiya texnologiyaları üzrə ekspert Osman Gündüz isə bildirir ki, müddət bir qədərf şişirdilir, əslində isə ilk mənzilin satışı 6 saniyədən sonra baş tutub: ”Rəqəmlərə diqqət etdikdə çox təəccübləndim. Statistika ilə sosial mediadakı narazılıq və qeyd edilən 2-3-4-5 saniyə söhbətləri arasında kəskin fərqlər var.

Statistikaya görə mənzillərin seçimi 6-cı saniyədən sonra başlanıb, daha çox 10-11-12 saniyələrdə seçilib, hətta 11 dəqiqə sonra da seçim olub. İlk mənzil seçiminə baxış 6 -cı saniyədən sonra (6.23) başlayıb. Bəs belə olan halda nə baş verib? Narazı olanlar bildirirdilər ki , 4-5 saniyə sonra sistemdə seçim üçün mənzil qalmayıb. Nə üçün 4-5 saniyədə sistemə girənlər mənzil seçə bilməyiblər?

Fikrimcə, burada düşündürücü məqamlar var. Güman etmək olar ki, MİDA bot, robot , müxtəlif süni metodlarla sistemə girənlər üçün qabaqcadan təhlükəsizlik mexanizmləri hazırlayıblar. Düşünmək olar ki, MİDA-nın ”Güzəştli mənzil” sisteminin təhlükəsizliyinə cavabdeh olanlar DEMO versiyanı buraxmaqla həm də oradakı statistikadan istifadə ediblər.

Yəni, DEMO-da test edənlərin zəif nöqtələrini incələyərək, DEMO-da süni üsullarla 2-5 saniyədə mənzil seçmə metodlarını analiz edərək ona qarşı real versiyada tədbirlər görüblər, DEMO-dakı kodlarla əsas versiyanın kodlarını dəyişiblər.

Belə çıxır ki, MİDA DEMO-nu həm də sistemin zəif nöqtələrini analiz etmək üçün buraxıbmış. DEMO-dan əldə edilən məlumatlar əsasında MİDA botlar üçün, necə deyərlər ”tələ” hazırlayıbmış. Bu onlayn satışdan narazı qalanların çox hissəsinin proqramçı olması da diqqət çəkən məqamdır. Əlbəttə, bu qeyd olunanlar statistikanın ilkin, ötəri analizindən sonra əldə etdiyim nəticələrdi.

Doğurdanmı bu belə olub? Doğurdanmı MİDA botlara qarşı öncədən ”tələ” hazırlayıbmış. Neçə bot zərərsizləşdirilib ? Eyni İP-dən daxil olanlar çoxmu olub? Doğurdanmı sistemə normal qaydada daha tez daxil olanlar da seçim edə bilməyiblər?

Bu tip sualların daha dəqiq cavabları MİDA-da toplanıb. Ümid edirəm, agentlik sosial mediada qeyd olunanlarla statistikadakı rəqəmlər arasındakı uyğunsuzluqları izah edən ağlabatan bir açıqlama da verəcək.

Fikrimcə, bununla bağlı mətbuat konfransının keçirilməsinə, daha əhatəli məlumatların verilməsinə də ehtiyac var. MİDA öncədən sistemin təkmilləşdirilməsi, şəffaflığın gücləndirilməsi, ağlabatan nəzarət mexanizmlərinin tətbiqi və alternativ satışla bağlı açıqlamaları cəmiyyətə təqdim etməlidir.

Bununla bağlı daha ətraflı data açıqlanmalıdır. Eyni zamanda, MİDA hər bir iddiaçının satışla bağlı real vəziyyətini əks etdirən log faylları açıqlamalı, botlarla bağlı məsələyə aydınlıq gətirməli, ”Güzəştli mənzil” sisteminin botlara qarşı nə dərəcədə güvənli olmasına ağlabatan bir açıqlama verməli, ümumiyyətlə ictimai əhəmiyyət kəsb edən bütün məlumatları açıqlamalıdır.

MİDA-nın ötən gün baş tutan onlayn satışı ilə bağlı cəmiyyəti narahat edən xeyli məsələlər var ki, hələlik onların müəyyən hissəsinə aydınlıq gətirilməyib. Ümid edirəm, MİDA daha təfsilatlı açıqlamalar verəcək”. Qeyd edək ki, Agentlik iddiaları rədd edib və prosesin düzgün aparıldığını bildirib.

| | |
|---|---|
| "Güzəştli mənzil" sistemində qeydiyyatdan keçərək elektron kabinetə sahib olan vətəndaşların sayı | **24761** |
| Satış zamanı mənzil seçimində iştirak edən istifadəçilərin sayı | **8939** |

| 30.03.2022-ci il tarixinə baxış keçirilən ilk mənzil | |
|---|---|
| Bina № | 18 |
| Giriş № | 2 |
| Mərtəbə № | 5 |
| Mənzil № | 4 |
| Otaq sayı | 3 |
| Mənzilə baxış keçirilməsinin başlama vaxtı | 30/03/2022 11:00:06.23 |
| Mənzil seçiminin təsdiqlənmə vaxtı | 30/03/2022 11:00:07.75 |
| Mənzil seçimi ərizəsinin imzalanma vaxtı | 30/03/2022 12:13:20.41 |

| 30.03.2022-ci il tarixinə baxış keçirilən son mənzil | |
|---|---|
| Bina № | 22 |
| Giriş № | 13 |
| Mərtəbə № | 9 |
| Mənzil № | 2 |
| Otaq sayı | 1 |
| Mənzilə baxış keçirilməsinin başlama vaxtı | 30/03/2022 11:11:26.50 |
| Mənzil seçiminin təsdiqlənmə vaxtı | 30/03/2022 11:13:28.47 |
| Mənzil seçimi ərizəsinin imzalanma vaxtı | |

**Qeyd: Bu mənzilə daha əvvəl bir neçə istifadəçi tərəfindən saat 11:00:16, 11:09:50, 11:11:01, 11:11:07 və 11:11:13-də baxış keçirilmiş, lakin mənzil seçimi təsdiq edilməmişdir. Nəticədə, bu mənzilə saat 11:11:26-da baxış keçirən istifadəçi tərəfindən saat 11:13:28-də mənzil seçimi təsdiq edilmişdir.**



### MİDA-nın rəsmi açıqlaması belədir

Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 6 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzilin, ümumilikdə 442 mənzilin ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə güzəştlə satışı prosesinə 30.03.2022-ci il tarixində saat 11:00-da başlanılmış və mənzillərin seçimi qısa müddətdə uğurla başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 24.05.2017-ci il tarixli 1418 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq satışa çıxarılan 442 mənzilin seçimi ”Elektron hökumət” portalı (www.e-gov.az) üzərindən ”Güzəştli mənzil” elektron sistemi vasitəsilə bərabər şəraitdə etibarlı, təhlükəsiz, şəffaf və fasiləsiz iş rejimində həyata keçirilmişdir. ”Güzəştli mənzil” sistemində elektron kabinet əldə etmiş şəxslərin sayı 24 761 nəfərdir.

Bugünkü satış zamanı 442 mənzilin seçimində iştirak edənlərin sayı 8 939 nəfər olmuşdur. Bu saata olan məlumata görə seçilmiş 442 mənzilin 257-i vətəndaşlar tərəfindən uğurla imzalanaraq ərizələri təqdim edilmişdir.

Mənzillərin seçimi prosesi Mənzil İnşaatı Dövlət Agentliyinin inzibati binasında Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndələrinin iştirakı ilə müşahidə edilmişdir. Seçilmiş mənzillər barədə statistik məlumatlarla aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz.

https://mida.gov.az/az/statistics/statistics_34

### Mənzillərin daha ədalətli bölünməsi üçün yeni mexanizm tapılmalıdır

Göründüyü kimi, sosial mənzillərə tələb böyükdür, lakin onların əldə edilməsi çox çətindir. Adi vətəndaşlar yüksək texniki biliklərə və peşəkarlığa malik deyillər, ona görə də onlayn formada belə mənzilləri ala bilmirlər. Əvəzində bəziləri peşəkar proqramistlərin vasitəsilə digərlərindən daha az ehtiyacı olduqları halda bu mənzilləri əldə edə bilirlər.

Fikrimizcə, sosial mənzillərin satışı üçün başqa mexanizm tapılmalıdır. ”Kim daha tez tərpəndi” prinsipi həm ədalətli deyil, həm də mübahisələr yaradır. Çünki, mənzil sayı, sosial mənzilə ehtiyacı olanların sayından dəfələrlə azdır. Ona görə də, sosial mənzillərin sayı artırılmalı və proses maksimum şəffaf keçirilməlidir.

Hər bir halda dövlətin sosial mənzil layhəsi əhalinin mənzil probleminin həll edilməsi istiqamətində atdığı ən təqdirəlayiq addımlardandır. Bu layihənin davamlı, daha böyük miqyasda və daha şəffaf keçirilməsi vacibdir.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS
1 aprel
2022-ci il

# Məsut Özil "Fənərbaxça"dan gedəcək?



**"Fənərbaxça"nın yarımmüdafiəçisi Məsut Özil klubu tərk etmək fikrində deyil. Bu haqda futbolçunun agenti Erkut Soqut "Fanatik" qəzetinə bildirib.**

**33 yaşlı oyunçunun klubla müqaviləsi 2024-cü ilin yayında başa çatır. O və digər futbolçu Ozan Tufan baş məşqçi İsmail Kartalla münaqişə səbəbindən ötən həftə əsas komandadan uzaqlaşdırılıb.**

"Məsut hazırda fərdi qaydada məşq edir. Müqaviləyə əsasən, komandada fəaliyyətini davam etdrmək hüququ var. Hazırda klub tərəfdən yekun qərar gözləyirik" - deyə E.Soqut bildirib.

## Bekhemin evi qarət olundu, qızılları oğurlandı



Futbol üzrə İngiltərə millisinin sabiq futbolçusu, "İnter Mayami"nin sahibi Devid Bekhem ailəsi ilə birlikdə evdə olarkən malikanəsi qarət edilib.

Qol.az "The Sun"a istinadən xəbər verir ki, hadisə fevralın 28-də Qərbi Londonda baş verib. Devid, həyat yoldaşı Viktoriya Bekhem və 10 yaşlı qızı Harper birinci mərtəbədə dincələn zaman maskalı oğru binanın yataq otaqlarından birinə daxil olub və bir neçə min funt-sterlinq dəyərində qızıl-zinət əşyaları, paltar və məişət texnikası oğurlayıb.

Oğurluq hadisəsindən evə qayıdan Bekhemin 17 yaşlı Devid Kruz ilk xəbərdar olub. O, otaqda hər şeyin alt-üst olduğunu və şüşənin sındığını görüb. "Təəssüf ki, Bekhemlər ərazidə fəaliyyət göstərən peşəkar oğrunun qurbanı oldular. Xoşbəxtlikdən, cinayətkar qaçmazdan əvvəl yalnız bir yataq otağına girə bildi" - deyə "The Sun" yazıb.

## Elektrik avtomobilləri ucuzlaşacaq?

"Dövlət tərəfindən atılan bir sıra addımlar Azərbaycanda ekoloji təmiz nəqliyyat vasitələrinin ucuzlaşmasına gətirib çıxara bilər. Burada həm də elektroavtomobillərin rolunu qeyd etmək olar. Çünki onlara daha çox güzəşt tətbiq olunur". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Elməddin Muradlı deyib. Onun sözlərinə görə, eyni zamanda hibrid avtomobillərə də dövlət tərəfindən təbliğat və təşviqat çərçivəsində ucuzlaşdırmaq üçün addımlar atılır: "Bu yaxınlarda Dövlət Gömrük Komitəsinin açıqlamasından da belə aydın oldu ki, bu avtomobilləri idxal vergisindən də azad etməyə çalışırlar. Artıq hibrid və elektroavtomobillər ƏDV-dən azad olunub".

Elməddin Muradlı sözlərinə belə davam edib: "Əgər bu avtomobillər yaxın gələcəkdə idxal vergisindən də azad olunsa bu böyük bir rəqəm deməkdir. Təbii ki, bunlar həmin tipli avtomobillərin ölkəmizə daha ucuz gəlməyinə şərait yaradacaq və insanlar da onları rahatlıqla ala biləcək.

Bu cür avtomobillər ətraf mühitin qorunması üçün ən ideal variantdır. Elektromobillər isə ən yaxşısıdır. Hibrid avtomobillər isə ekologiyanın qorunması üçün ənənəvi avtomobildən 50 faiz daha effektlidir. Yəni, yanacağa 50 faiz qənaət edir. Ümid edirik ki, yaxın gələcəkdə hibrid və elektroavtomobillərlə bağlı daha güzəştli addımlar atılacaq".

***Ayşən Vəli***

## Diqqət: Oruc tutan şəxs bunlardan mütləq uzaq durmalıdır

**"Oruc tutan şəxs ilk öncə niyyət etməlidir. Bu niyyətin edilməsi mütləq və vacibdir. Oruc tutan şəxs hər gün üçün də niyyət edə bilər, ümumi ayın əvvəlində də niyyət edilməsi mümkündür". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev bildirib.**

Onun sözlərinə görə, niyyət yatmamışdan əvvəl də edilə bilər, həmçinin imsak üçün duran zaman da niyyət etmək olar: "Oruc tutan şəxs yemək və içməkdən gün ərzində özünü mütləq şəkildə qorumalıdır. Hətta qatı tüstü, yəni siqarət, tütün kimi tüstülərin boğaza ötürülməsi qadağandır. Eyni zamanda bronxit xəstəliyi olanların müəyyən spreylərdən istifadə etmələrinə əvvəllər icazə yox idi. Lakin indiki alimlər artıq buna icazə verdilər. Çünki bildirildi ki, bu spreylər qida və tüstü şəklində olmadığı üçün istifadəsinə də icazə var. Yəni əgər zərurət varsa bunu istifadə edə bilərlər və bu zaman orucları batil olmaz. Amma insan ümumilikdə heç bir qida və mayedən istifadə edə bilməz. Lakin səhvən, bilmədən qida qəbul edərsə, yadına düşən kimi ağzında nə qədər qalıbsa artıq onu xaric etməlidir. Lakin boğzından keçibsə, eyib etməz və orucu batil olmaz. Yəni bu kimi halar bilmədən yaşanırsa, bu zaman oruc batil olmur.

Eyni zamanda insanlar cinsi həyatlarını sübh açılandan axşama kimi etməməlidirlər. Amma dinimiz icazə verir ki, insanlar hava qaraldıqdan sübh Azanı oxunana qədər olan müddət ərzində normal həyatlarına davam edə bilərlər. Sadəcə olaraq insanın boynuna qüsul gələrsə, sübh namazına qədər bunu mütləq etməlidir. Yəni yuyunmalıdır, əgər yuyunmasa orucunu batil edə bilər. Su tapa bilmir, əgər yuyuna bilmirsə, bu zaman yuyunmaq əvəzinə torpaqla təumum edilməlidir. Gün ərzində hava açılandan sonra su taparsa, yuyunmağa imkanı olarsa, bu zaman yuyunmalıdır.

Əgər kimsə iş ilə əlaqədar daim yolda olursa, o insanlar da oruc tuta bilər. Eyni zamanda hamilə qadınlarla bağlı həkim bildirir ki, oruc tutmaq güzəştlidir. Bu zaman gələn Ramazana qədər qəza edə bilər. Eyni zamanda bu məsələ süd verən analara da aid edilir. Qocalara da güzəşt edilir. Bundan əlavə müəyyən xəstələr olur ki, onlar da güzəştli sayılır. Hansı ki, oruc tutmaq onların orqanizmləri üçün zərərlidir, eyni zamanda gün ərzində dərman qəbul etməli olurlar.

Eyni zamanda orucluq zamanı zərurət varsa, diş çəkdirməyə də icazə var. Müalicəyə ehtiyac olduğu təqdirdə isə boğazdan su keçməsinə icazə vermədən müalicə olunmaq olar. Eyni zamanda insan məcburiyyət qarşısında qalmadığı təqdirdə çalışmalıdır ki, səfərə çıxmasın. Lakin belə bir hal baş verərsə, bu zaman getdiyi yerdə yenidən niyyət edib, orucunu tamamlaya bilər. Yola çıxan zaman günorta namazından sonra çıxıldıqda, heç bir problem yaşanmaz və şəxs orucunu davam etdirə bilər.

Orucluqda insan tək orqanizmini deyil, eyni zamanda ruhunu da təmizləməlidir. Qeybət etməməli, yalan sözlər danışmamalı, naməhrəmə baxmamalı, yəni günahlardan çəkinməlidir. Hətta qəlb günahları da var, hansı ki, fikirdə, düşüncədə baş verir. Bunların da qarşısı alınmalıdır.

Orucluq ərzində dua edilməli, namaz qılınmalı, quran oxunulmalıdır. Bu zaman insan nə qədər zikr etsə, o qədər yaxşıdır. Namaz qılmağı bacarmayanlar öyrənməyə çalışsın. Eyni zamanda namaz qıla bilmirsə, oruc tuta bilər. Lakin Namaz qılmağı da öyrənməyə başlasa yaxşı olar. Orucluqda insan yaxşılıqlar etməli, ehtiyacı olanlara kömək etməlidir. Allah hər kəsin dualarını qəbul etsin".

***Səbinə Hüseynli***



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**